# AZƏRBAYCAN RESPUBLİKASI MƏRKƏZİ BANKININ İDARƏ HEYƏTİNİN QƏRARI

**№16/1-2**

**Bakı şəhəri** **24 aprel 2020-ci il**

**“Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları”nın təsdiq edilməsi barədə**

“Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında” Azərbaycan Respublikası Qanununun 22.0.17-ci maddəsinə əsasən Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti

**QƏRARA ALIR:**

1. “Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları” təsdiq edilsin (əlavə olunur).

2. Ləğv edilmiş Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının 2018-ci il 16 noyabr tarixli 1851100015 nömrəli Qərarı ilə təsdiq edilmiş “Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları” və bu qaydalara 2019-cu il 18 oktyabr tarixli 1951100033 nömrəli Qərarla təsdiq edilmiş dəyişiklik ləğv edilsin.

Hüquq departamentinə (Rəna Məlikova) tapşırılsın ki, bu Qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilməsini təmin etsin.

**Mərkəzi Bankın sədri** **Elman Rüstəmov**

01.01.2027-ci il tarixindən etibarən qüvvəyə minəcək versiya

“Təsdiq edilmişdir”
Azərbaycan Respublikasının
Mərkəzi Bankı
Qərar № 16/1-2

24 aprel 2020-ci il

# Bank kapitalının və onun adekvatlığının hesablanması

# Qaydaları

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar “Banklar haqqında” Azərbaycan Respublikası Qanununun (bundan sonra- Qanun) 21.1-ci, 34.2.1-ci, 34.2.2-ci və 34.2.3-cü maddələrinə uyğun olaraq*, habelə Bank nəzarəti üzrə Bazel Komitəsinin Bazel III Standartı nəzərə alınmaqla* hazırlanmışdır.

1.2. Bu Qaydalar Azərbaycan Respublikasında fəaliyyət göstərən banklar və xarici bankların yerli filialları (bundan sonra - banklar) üçün məcmu kapitalın strukturunu, komponentlərini, adekvatlıq və leverec əmsallarını, onların minimum miqdarını və hesablanması qaydalarını müəyyən edir.

## 2. Anlayışlar

2.1. Bu Qaydalarda istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. məcmu kapital (xarici bankların yerli filialları üçün məcmu kapitala bərabər tutulmuş vəsait) - prudensial hesabatlıq məqsədləri üçün istifadə olunan kapital olmaqla, bu Qaydalarda müəyyən edilmiş I dərəcəli (əsas) və II dərəcəli (əlavə) kapitala daxil olan komponentlərin (elementlərin) cəmi və onlardan tutulmaların fərqi;

*2.1.1-1. I dərəcəli kapital - bankın fəaliyyətinin davam etməsinə imkan verən və itkiləri dərhal absorbsiya etmək imkanına malik olan elementlərdən ibarət kapital;*

*2.1.1-2. II dərəcəli kapital - bankın ödəmə qabiliyyətinin itirilməsi mərhələsində silinmə və ya səhmə çevrilmə üsulu ilə bankın əmanətçiləri və (və ya) digər kreditorlarından əvvəl itkiləri absorbsiya etmək qabiliyyətinə malik olan elementlərdən ibarət kapital;*

~~*2.1.2. risk dərəcəsi üzrə ölçülmüş aktivlər - tutulmalar çıxıldıqdan sonra balans aktivlərinin və balansdankənar öhdəliklərin hər birinin risk dərəcəsinə əsasən qiymətləndirilmiş dəyəri;*~~

2.1.3. kapitalın adekvatlıq əmsalları - bu Qaydalarda müəyyən edilmiş düsturlarla hesablanan I dərəcəli kapitalın və məcmu kapitalın ayrılıqda risk dərəcəsi üzrə ölçülmüş aktivlərə nisbəti;

2.1.4. kontr-tsiklik kapital buferi – iqtisadi tsikl və kredit portfelinin dinamikasına uyğun olaraq Azərbaycan Respublikasının Mərkəzi Bankı (bundan sonra – Mərkəzi Bank) tərəfindən müəyyən edilmiş *əsas* I dərəcəli kapitaldan ibarət bufer;

*2.1.4-1. konservasiya kapital buferi – bankın itkiləri absorbsiya etmə potensialını artırmaq məqsədilə bu Qaydalarla müəyyən edilmiş əsas I dərəcəli kapitaldan ibarət bufer;*

*2.1.4-2. sistem əhəmiyyətli bank kapital buferi – bankın sistem əhəmiyyətliliyi indeksi nəzərə alınmaqla onun itkiləri absorbsiya etmə potensialını artırmaq məqsədilə bu Qaydalarla müəyyən edilmiş əsas I dərəcəli kapitaldan ibarət bufer;*

2.1.5. kreditə konvertasiya əmsalı - bankın balansdankənar öhdəliklərinin balans aktivlərinin dəyərinə çevrilməsinə imkan verən göstərici;

2.1.6. aktivlər üzrə zərərin ödənilməsi üçün "adi" ehtiyatlar - bankın "standart aktivlər"i üzrə mümkün zərərlərin ödənilməsi üçün yaradılmış ehtiyatlar;

2.1.7. aktivlər üzrə zərərin ödənilməsi üçün "məqsədli" ehtiyatlar - bankın "qeyri-standart aktivlər"i üzrə mümkün zərərlərin ödənilməsi üçün yaradılmış ehtiyatlar;

2.1.8. kapitalın hibrid elementləri - səhmlərin və borc öhdəliklərinin xüsusiyyətlərini özündə birləşdirən müddətli və müddətsiz maliyyə alətləri*~~, o cümlədən kumulyativ və qeyri-kumulyativ müddətsiz imtiyazlı səhmlər, subordinasiya borc öhdəlikləri və ya digər oxşar qiymətli kağızlar;~~*

*~~2.1.9. qeyri-kumulyativ müddətsiz imtiyazlı səhmlər – emitentə səhm mülkiyyətçilərinə dividendlərin verilməməsi barədə qərar qəbul etmək hüququ verən, habelə səhm mülkiyyətçilərinə əvvəlki ödənilməmiş dividendlər üzrə ödənişlərin alınmasını tələb etmək hüququ verməyən imtiyazlı səhmlər (emissiya şərtlərində dividendlərin məbləği bazar şəraitindən və bankın maliyyə vəziyyətindən asılı olaraq dəyişilməsi nəzərdə tutulursa, bu səhmlər qeyri-kumulyativ müddətsiz imtiyazlı səhmlərə aid edilmir);~~*[1]

*~~2.1.10. kumulyativ müddətsiz imtiyazlı səhmlər – emissiya şərtlərinə görə mülkiyyətçilərinə ödənilməyən dividendləri daim toplanan və qeyri-kumulyativ müddətsiz imtiyazlı və adi səhmlər üzrə dividendlər ödənilməzdən əvvəl ödənilən, habelə emitentə dividendlərin ödənilməsi vaxtının müəyyən müddətə təxirə salınması hüququ verən imtiyazlı səhmlər;~~*

*~~2.1.11. subordinasiya borc öhdəlikləri – emissiya şərtlərinə görə ödəmə vaxtı çatdıqda ödənilən, bankın aktivlərinin girovu ilə təmin edilməyən, mülkiyyətçisinin tələbi ilə geri alınmayan, son ödəmə müddəti başa çatana kimi bu öhdəlik üzrə ödəmə (əsas borc və ya əsas borc üzrə faizlər və (və ya) müqavilədə göstərilən digər ödənişlər) baş tutmadığı təqdirdə bankı müflis elan etmək və ya ləğv etmək hüququ verməyən, bank ləğv edilərkən onların ödənilməsi əmanətçilərin və bankın digər kreditorlarının tələbləri tam ödənildikdən sonra icra olunan öhdəliklər;~~*[2]

2.1.12. səhmlərin emissiyasından yaranan əlavə vəsait (bundan sonra - kapital artıqlığı) - adi, yaxud imtiyazlı səhmlərin yerləşdirilməsi zamanı onların satış dəyəri ilə nominal dəyəri arasında yaranmış fərq həcmində əldə edilmiş vəsait;

2.1.13. qeyri-maddi aktivlər - kompüter proqramları, müəllif hüquqları, patent, təbii ehtiyatlardan istifadə hüquqları, lisenziyalar, ticarət və əmtəə nişanları, "nou-hau", "qudvil" və fiziki ifadə forması olmayan, lakin dəyər yaradan və mülkiyyət hüququnun obyekti kimi tanınan digər hüquqlar;

2.1.14. leverec əmsalı - bankın I dərəcəli kapitalının (bu Qaydaların *~~8.1.1-ci yarımbəndində~~* *8-ci hissəsində* müəyyən edilmiş tutulmalardan sonra) balans aktivlərinə və bankın hesablarında girov qoyulmuş Azərbaycan Respublikasının milli valyutası ilə, xarici valyuta ilə və ya bank metalları ilə təmin olunmuş hissəsi istisna olmaqla, balansdankənar öhdəliklərinə nisbəti;

2.1.15. balansdankənar öhdəliklər - qarantiyalar, zaminlik və oxşar şərti öhdəliklər, kredit alətləri (kredit xətləri üzrə öhdəliklərin icra olunmamış hissəsi və oxşar kredit öhdəlikləri) və akkreditivlər;

2.1.16. qiymətli kağızın bazar dəyəri - maliyyə bazarlarında qiymətli kağızın tələblə təklifin qarşılıqlı təsiri nəticəsində təşəkkül tapan qiyməti;

2.1.17. istehlak krediti - sahibkarlıq və ya peşə fəaliyyəti, habelə daşınmaz əmlakın əldə edilməsi və tikintisi ilə bağlı olmayan məqsədlər üçün fiziki şəxslərə verilən kredit, *o cümlədən kredit xətti;*[3]

2.1.18. biznes krediti - hüquqi şəxslərə və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərə sahibkarlıq məqsədilə verilən kredit, *habelə kənd təsərrüfatı kreditləri;* [4]

2.1.19. bank aksepti - qısa müddətli borc öhdəliklərininin icrasına bankın razılığını və ya zəmanətini nəzərdə tutan sənəd;

2.1.20. çoxtərəfli inkişaf bankı - iki və daha artıq ölkə tərəfindən iqtisadi inkişafın dəstəklənməsi məqsədilə təsis edilmiş beynəlxalq maliyyə təşkilatı;

~~2.1.21. borcun gəlirlərə nisbəti (BGN əmsalı) – istehlak kreditləri üzrə borcalanın aylıq borc yükünün onun gəlirlərinə nisbəti əmsalı (birgə borcalan qrupuna daxil olan fiziki şəxslər üzrə onların ümumi aylıq borc yükünün onların ümumi gəlirlərinə nisbəti);~~[5]

~~2.1.22. qeyri-işlək kredit - əsas məbləğ, yaxud ona hesablanan faizlər və ya hər hansı birinin ödənilməyən hissəsi üzrə ödənişləri müqavilədə və ya ödəniş qrafikində göstərilən tarixdən 90 (doxsan) təqvim günündən artıq gecikdirilmiş kreditin qalıq məbləği;~~[6]

~~2.1.23. mikrokreditlərin qeyri-işlək məbləği – Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin (bundan sonra –Agentlik) təminatı ilə verilmiş mikrokredit üzrə əsas borc ödənişlərinin müqavilədə göstərilən tarixdən 90 (doxsan) təqvim günündən artıq gecikdirilmiş hissəsi.~~

*2.1.24. pul vəsaitlərinin hərəkəti üzrə hedcinq ehtiyatları - bazarda maliyyə alətlərinin dəyərindəki dəyişikliklərlə bağlı potensial itkilərdən qorunmaq məqsədilə gələcək pul vəsaitlərinin hərəkətinin törəmə maliyyə alətləri vasitəsilə hedcləşdirilməsi nəticəsində yaranan və digər məcmu gəlirlərdə tanınan yığılmış mənfəət və ya zərər;*

*2.1.25 təxirə salınmış vergi aktivləri - çıxılan müvəqqəti fərqlər, gələcək dövrə keçirilən istifadə olunmamış vergi zərərləri və gələcək dövrə keçirilən istifadə olunmamış vergi kreditləri ilə əlaqədar gələcək dövrlərdə əvəzi alınmalı olan mənfəət vergisi məbləği;*

*2.1.26. digər məcmu gəlirlər - mənfəət və ya zərər haqqında hesabatda əks olunmayan gəlir və zərər;*

*2.1.27. çarpaz investisiya - bankın digər maliyyə təşkilatının, həmin maliyyə təşkilatının isə bankın səhmlərinə və ya kapitalındakı digər, o cümlədən hibrid elementlərə birbaşa və ya dolayı yolla (törəmə maliyyə alətləri, kredit, qarantiya və buna oxşar alətlər vasitəsilə edilən investisiyalar) sahibliyi;*

*2.1.28. əhəmiyyətli investisiya - aşağıdakı meyarlardan azı birinə uyğun olan investisiya:*

*2.1.28.1. bankın digər hüquqi şəxsin adi səhmlərində 10 (on) faizdən artıq paya sahib olması;*

*2.1.28.2. kapitalında iştirak payından asılı olmayaraq bankın müqavilə əsasında və ya başqa əsaslarla digər hüquqi şəxsin qərarlarının qəbul edilməsinə mühüm təsir göstərməsinə imkan verən paya sahib olması.*

*2.1.29. qismən əhəmiyyətli və ya əhəmiyyətsiz investisiya – əhəmiyyətli investisiyalara aid olmayan digər investisiyalar.*

*2.1.30. maliyyə təşkilatları – bank xidmətləri və digər maliyyə xidmətlərini göstərən təşkilatlar (banklar, bank olmayan kredit təşkilatları, kredit ittifaqları, lizinq verənlər, sığorta, faktorinq, lombard təşkilatları və digər oxşar təşkilatlar);*

*2.2. Bu Qaydada istifadə edilən digər anlayışlar "Banklar haqqında" Azərbaycan Respublikasının Qanunu və həmin Qanundan irəli gələn normativ xarakterli aktlar ilə müəyyən edilmiş mənaları ifadə edir.*[7]

*2.3. Bu Qaydaların məqsədləri üçün kredit xətti dedikdə bank hesabı müqaviləsinə müvafiq surətdə müştərinin hesabında pul vəsaitinin olmadığına baxmayaraq bank tərəfindən ödənişlərin həyata keçirilməsi üçün kreditin ayrılması (hesabın kreditləşdirilməsi) barədə öhdəlik (müştərinin borc almaq, kredit təşkilatının isə borc verməklə bağlı iradəsindən asılı olmayan və klirinq zamanı baş verən məzənnə dəyişikliyi və ya texniki problemlərdən yaranan öhdəlik istisna olmaqla) də nəzərdə tutulur.*[8]

## 3. Məcmu kapitalın məqsədi və ona dair tələblər

3.1. Bankın məcmu kapitalının əsas məqsədi bankın biznes strategiyasının dəstəklənməsi, daxili və xarici mühitdə baş verən əlverişsiz dəyişikliklər zamanı bankın maliyyə dayanıqlığının təmin edilməsidir. Məcmu kapital bankın ödəmə qabiliyyətinin itirilməsinə gətirib çıxara bilən mümkün zərərlərin azaldılmasına, əmanətçilərin və potensial investorların bank sisteminə etimadının artırılmasına xidmət edir.

3.2. Bankın məcmu kapitalının minimum miqdarı 50 (əlli) milyon manat məbləğində olmalıdır.

3.3. Məcmu kapitala yalnız pul vəsaiti ilə ödənilən maliyyə alətləri daxil edilir.

3.4. Qanunun 21.2-ci və 21.3-cü maddələrinin tələblərinə müvafiq olaraq Mərkəzi Bankın qabaqcadan yazılı icazəsi olmadan bank səhmlərinin satın alınması və ya səhmlərin nominal dəyərinin azaldılması zamanı onun dəyərinin ödənilməsi yolu ilə məcmu kapitalını azalda bilməz, habelə xarici bank nizamnamə kapitalına bərabər tutulmuş vəsaitlərinin geri götürülməsi yolu ilə yerli filialının məcmu kapitala bərabər tutulmuş vəsaitini azalda bilməz.

3.5. Bankların nizamnamə kapitalı (xarici bankların yerli filialları üçün nizamnamə kapitalına bərabər tutulmuş vəsait) Qanunun 21.4-cü maddəsinə uyğun olaraq yalnız Azərbaycan Respublikasının milli valyutasında ödənilən pul vəsaiti ilə formalaşdırılır.

3.6. Yeni yaradılan banklar üçün nizamnamə kapitalının (xarici bankların yerli filialları üçün nizamnamə kapitalına bərabər tutulmuş vəsaitin) minimum miqdarı 50 (əlli) milyon manat məbləğində olmalıdır.

## 4. Kapitalın idarə edilməsi

4.1. Müşahidə Şurası və İdarə Heyəti *bank* ~~məcmu~~ kapitalın*ın* bankın üzləşdiyi bütün risklərin səviyyəsinə uyğun həcmdə, bu Qaydalarda müəyyən edilən minimum miqdardan az olmayaraq, saxlanmasını və ~~onun~~ *bu Qaydaların 8-3.1-ci və 8-4.5-ci bəndlərində müəyyən edilmiş* adekvatlıq normalarına riayət olunmasını təmin etməlidir.

4.2. Kapitalın bankın biznes fəaliyyətinin və risk mühitinin xüsusiyyətlərinə uyğun qiymətləndirilməsi və onun səviyyəsinin müəyyən edilməsi mexanizmləri, o cümlədən bankın məruz qaldığı kredit, bazar, əməliyyat və digər risklərin ~~məcmu~~*bank* kapitalın*ın* ~~adekvatlığına~~ *adekvatlıq əmsallarına* potensial təsirinin qiymətləndirilməsi prosedurları mövcud olmalıdır.

4.3. Risklərin idarə edilməsi üzrə bankın siyasətində onun kapitala olan cari və gələcək tələbatı, gözlənilən kapital xərcləri, kapitalın arzuolunan səviyyəsi və strukturu, kapitalın daxili və xarici mənbələri, həmçinin bankın maliyyə vəziyyətinin pisləşməsi halında əlavə kapital vəsaitlərinin cəlb edilməsi imkanları və müddətləri müəyyən edilir.

4.4. Bank məruz qaldığı risklərin və bu risklərin dəyişməsinin bankın gəlirliyinə, ~~məcmu kapitala və onun~~*kapital* adekvatlığı~~na~~ *əmsallarına* təsirini qiymətləndirir. Qiymətləndirmə bank risklərinin xüsusiyyətləri nəzərə alınmaqla bankın müəyyən etdiyi dövriliklə stress-testləşdirmə və ya risklərin idarə edilməsi sahəsində tətbiq olunan digər metodlardan istifadə edilməklə həyata keçirilir. Qiymətləndirmə ən azı aşağıdakı elementləri əhatə edir:

4.4.1. bütün mühüm risklərin müəyyənləşdirilməsi, ölçülməsi və onların bank~~ın məcmu~~ kapitalının adekvatlığı~~na~~ *əmsallarına* təsirinin qiymətləndirilməsi;

4.4.2. bankın təyin edilmiş kapital adekvatlığı hədəflərinə nail olmasının qiymətləndirilməsi;

4.4.3. ~~məcmu~~ kapitalın qiymətləndirilməsi sistemində istifadə edilən əsas fərziyyələrin qiymətləndirilməsi;

4.4.4. risklər əsasında bankın gələcəkdə ~~məcmu~~ kapitala olan tələbatının qiymətləndirilməsi və lazım gəldikdə risklərin idarə edilməsi siyasətində müvafiq düzəlişlərin edilməsi zərurətinin müəyyənləşdirilməsi.

4.5. ~~Məcmu k~~*K*apitalın adekvatlığı~~nı~~ *əmsallarını* təmin etmək məqsədilə bankda kapitalın və müvafiq risklərin idarə edilməsi prosesləri aşağıdakı istiqamətlər üzrə təhlil edilir:

4.5.1. fəaliyyətinin xüsusiyyəti, həcmi və mürəkkəbliyi nəzərə alınmaqla ~~məcmu~~ kapitalın qiymətləndirilməsi prosesinin səmərəliliyi;

4.5.2. ~~məcmu~~ kapitalın əsas risklərin səviyyəsi ilə düzgün əlaqələndirilməsi;

4.5.3. qiymətləndirmə zamanı istifadə edilən məlumatların dürüstlüyü və dolğunluğu;

4.5.4. qiymətləndirmə zamanı istifadə olunan fərziyyə, model və ssenarilərin əsaslandırılması və etibarlılığı.

4.6. Bu Qaydaların 4.4-cü və 4.5-ci bəndlərinə müvafiq olaraq aparılmış qiymətləndirmənin və təhlilin nəticələri bankda müəyyən edilmiş hesabatlıq qaydasına uyğun olaraq Müşahidə Şurasına təqdim edilir.

4.7. Bank~~ın məcmu ~~kapitalının qiymətləndirilməsi və idarə edilməsi prosesləri ildə bir dəfədən az olmayaraq daxili audit vasitəsilə yoxlanılır və nəticələr barədə Müşahidə Şurasına hesabat verilir.

## 5. Məcmu kapitalın strukturu

5.1. Məcmu kapitalın strukturuna birinci (I) dərəcəli və ikinci (II) dərəcəli kapital daxildir. ~~*I və II dərəcəli kapitala aid olan komponentlər bu Qaydaların 6-cı və 7-ci hissələrində müəyyən edilir.*~~

*5.2. Birinci (I) dərəcəli kapital Əsas birinci (I) dərəcəli kapital və Əlavə birinci (I) dərəcəli kapitaldan ibarətdir.*

*5.3. Əsas I dərəcəli kapitalın, Əlavə I dərəcəli kapitalın və II dərəcəli kapitalın hesablanması qaydası bu Qaydaların 6-cı, 6-1-ci və 7-ci hissələrində müəyyən edilir.*

## 6. *Əsas* I dərəcəli kapital

6.1. ~~*I dərəcəli kapital bankın əsas kapitalı hesab olunur və onun məbləği (aparılan "tutulmalardan" sonra) bankın hesablanmış məcmu kapitalında 50 (əlli) faizdən az olmamalıdır.*~~*Əsas I dərəcəli kapital bu Qaydaların 6.2-ci bəndində müəyyən edilmiş elementlərin cəmi ilə bu Qaydaların 8-ci hissəsində müəyyən edilmiş tutulmaların fərqinə bərabərdir.*

6.2. *Əsas* I dərəcəli kapitala aşağıdakı ~~*komponentlər*~~*elementlər* daxil edilir:

6.2.1. dövriyyəyə buraxılıb tam ödənilmiş adi səhmlər (bankın geri aldığı adi səhmlər çıxılmaqla);

~~*6.2.2. dövriyyəyə buraxılıb tam ödənilmiş qeyri-kumulyativ müddətsiz imtiyazlı səhmlər;*~~

6.2.3. *bu Qaydaların 6.2.1-ci yarımbəndindəki səhmlər üzrə* kapital artıqlığı;

*6.2.3-1. yığılmış digər məcmu gəlirlər;*

6.2.4. ~~*keçmiş illərin*~~ bölüşdürülməmiş xalis mənfəəti~~.~~

6.3. ~~*Keçmiş illərin* b~~bölüşdürülməmiş xalis mənfəəti~~nə~~ aşağıdakılar daxil edilir:

6.3.1~~*. cari ilin zərəri çıxılmaqla*~~ bütün əvvəlki illərin yığılıb bölüşdürülməmiş mənfəəti *və ya zərəri*;

*6.3.1-1. cari ilin mənfəət və ya zərəri. Hesablamada bankın səhmdarlarının ümumi yığıncağı tərəfindən ödənişi barədə qərar verilmiş və ya qərar verilməsi nəzərdə tutulan dividend (gözlənilən dividend) məbləği cari ilin mənfəətindən çıxılır, səhmdarların ümumi yığıncağının qərarı olmadıqda isə gözlənilən dividend məbləği bankın dividend siyasətində müəyyən edilmiş həddən az olmamaqla çıxılır. Bankın dividend siyasəti olmadıqda gözlənilən dividend məbləği bankın son üç mənfəətli ili üzrə orta dividend ödənişi əmsalı və son mənfəətli ilin dividend ödənişi əmsalı arasında ən yüksək olanından az olmamaqla çıxılır. Gözlənilən dividend məbləğinin hesablanması zamanı xalis mənfəətin bölüşdürülə bilən hissəsi üzrə bu Qaydaların 8-2.2-ci bəndində müəyyən edilmiş məhdudiyyətlər nəzərə alınır;*

6.3.2. kapital ehtiyatları, yəni əvvəlki illərin bölüşdürülməmiş mənfəəti hesabına yaradılmış fondlar.

*6.4. Cari ilin mənfəəti beynəlxalq nüfuzlu kənar auditor tərəfindən xüsusi ehtiyatların Mərkəzi Bankın normativ xarakterli aktlarının tələblərinə uyğun olaraq yaradıldığı təsdiq edildiyi halda bu Qaydaların 6.3.1-1-ci yarımbəndinə uyğun olaraq Əsas I dərəcəli kapitala daxil edilir.*

*6.5. Cari ilin mənfəəti bu Qaydaların 6.4-cü bəndində müəyyən edilmiş tələblərə uyğun olaraq beynəlxalq nüfuzlu kənar auditor tərəfindən təsdiqlənmədikdə cari ilin mənfəəti bankın II dərəcəli kapitalına daxil edilir.*

### *6-1. Əlavə I dərəcəli kapital*

*6-1.1. Əlavə I dərəcəli kapital bu Qaydaların 6-1.2-ci bəndində müəyyən edilmiş elementlərin cəmi ilə bu Qaydaların 8-ci hissəsində müəyyən edilmiş tutulmaların fərqinə bərabərdir.*

*6-1.2. Əlavə I dərəcəli kapitala aşağıdakı elementlər daxil edilir:*

*6-1.2.1. bank tərəfindən emissiya edilən və bu Qaydaların 6-1.3-cü bəndində müəyyən edilmiş tələblərə cavab verən kapitalın elementləri, o cümlədən hibrid elementləri;*

*6-1.2.2. bu Qaydaların 6-1.2.1-ci yarımbəndində nəzərdə tutulmuş tələblərə uyğun gələn səhmlər üzrə kapital artıqlığı.*

*6-1.3. Azı aşağıdakı bütün meyarlara cavab verən kapital elementləri Əlavə I dərəcəli kapitala daxil edilir:*

*6-1.3.1. dövriyyəyə buraxılmış və tam ödənilmiş olmalıdır;*

*6-1.3.2. bank ləğv edildikdə bu elementlər üzrə öhdəliklərin icrası bankın əmanətçilərinin və digər kreditorlarının tələbləri, habelə II dərəcəli kapitala daxil edilən borc öhdəlikləri tam ödənildikdən sonra müəyyən edilməli və ya ödənişlərlə bağlı hər hansı imtiyaz nəzərdə tutulmamalıdır;*

*6-1.3.3. bu elementlər üzrə öhdəliklərin icrasına bankın aktivləri ilə təminat verilməməlidir;*

*6-1.3.4. bu elementlər üzrə öhdəliklərin əsas məbləğinin icrası müddətsiz kimi müəyyən olunmalı və bu Qaydaların 6-1.3.5-ci yarımbəndinin tələbi nəzərə alınmaqla geri ödəməni təşviq edəcək hər hansı şərt (məsələn, dividend və faiz artımı) müəyyən olunmamalıdır;*

*6-1.3.5. bu elementlər üzrə geri çağırılma imkanı olduqda, Mərkəzi Bankın razılığı əsasında bu cür öhdəliklərin yaranma tarixindən azı 5 (beş) il sonra geri çağırılması nəzərdə tutula bilər. Mərkəzi Bank tərəfindən bu cür razılığın verilməsi zamanı aşağıdakılar nəzərə alınır:*

*6-1.3.5.1. bu kapital elementinin geri çağırılması nəticəsində Mərkəzi Bankın bank kapitalına dair müəyyən etdiyi prudensial normativlər pozulmamalıdır;*

*6-1.3.5.2. bu kapital elementinin oxşar və ya daha dayanıqlı kapital elementləri ilə əvəz edilməsi mümkün olmalıdır.*

*6-1.3.6. bu elementlər üzrə öhdəliklərin əsas məbləği Mərkəzi Bankın razılığı əsasında icra oluna bilər. Mərkəzi Bank tərəfindən bu cür razılığın verilməsi zamanı bu Qaydaların 6-1.3.5.1-ci və 6-1.3.5.2-ci yarımbəndlərinin tələbləri nəzərə alınır.*

*6-1.3.7. bankın bu elementlər üzrə dividend və ya faiz ödənişlərinin verilməməsi hüququ olmalıdır və bu hüquqdan istifadə bankı müflis elan etmək və ya ləğv etmək üçün əsas verməməlidir;*

*6-1.3.8. bu elementlər üzrə ödənişlərin şərti bankın kredit reytinqi və (və ya) maliyyə vəziyyəti ilə əlaqəli olmamalıdır;*

*6-1.3.9. bu elementlərin bank və ya bankın mühüm təsir göstərdiyi hüquqi şəxs tərəfindən əldə edilməsi və ya bu elementlərin alışının birbaşa və ya dolayı yolla bank tərəfindən maliyyələşdirilməsi (məsələn, kredit, qarantiya və s.) nəzərdə tutulmamalıdır;*

*6-1.3.10. bankın Əsas I dərəcəli kapitalı 5.125%-dən aşağı düşdükdə bu elementlərin həcmini azaltmaq və ya adi səhmə çevirmək hüququ olmalıdır. Bu hal baş verdikdə bank Mərkəzi Bankı dərhal məlumatlandırır. Bank bu elementləri Əsas I dərəcəli kapitalın azı 5.125%-ə çatdırılması üçün tələb olunan məbləğ həcmində azaldır və ya adi səhmə çevirir.*

*6-1.4. Bank tərəfindən bu Qaydaların 6-1.3-cü bəndinin bütün meyarlarına cavab verən kapital elementlərinin Əlavə I dərəcəli kapitala daxil edilməsi barədə qərar qəbul edildikdən sonra, bu barədə məlumat növbəti 3 (üç) iş günü ərzində Mərkəzi Banka təqdim edilir.*

*6-1.5. Azərbaycan Respublikasının vergi və digər qanunvericilik aktlarında bu elementlərlə bağlı əhəmiyyətli dəyişikliklər olduqda, bu Qaydaların 6-1.3.5.1-ci və 6-1.3.5.2-ci yarımbəndlərinin tələblərinə əməl olunmaqla Mərkəzi Bankın razılığı əsasında bu elementlər üzrə geri çağırılma imkanı onun ilk 5 (beş) illik müddəti ərzində icra edilə bilər.*

### 7. II dərəcəli kapital

7.1. ~~II dərəcəli kapital əlavə kapitaldır. Bankın hesablanmış məcmu kapitalında II dərəcəli kapitalın məbləği I dərəcəli kapitalın məbləğindən (aparılan “tutulmalardan” sonra) çox olmamalıdır. Bundan artıq olan hissə məcmu kapitalın hesablanması zamanı nəzərə alınmır.~~ II dərəcəli kapital bu Qaydaların 7.2-ci bəndində müəyyən edilmiş elementlərin cəmi ilə bu Qaydaların 8-ci hissəsində müəyyən edilmiş tutulmaların fərqinə bərabərdir.

7.2. II dərəcəli kapitala aşağıdakı elementlər ~~komponentlər~~ daxil edilir:

7.2.1. cari ilin mənfəəti (əsas I dərəcəli kapitalda tanınmadığı halda). Hesablamada bankın səhmdarlarının ümumi yığıncağı tərəfindən ödənişi barədə qərar verilmiş və ya gözlənilən dividend məbləği cari ilin mənfəətindən çıxılır. Gözlənilən dividend məbləği bu Qaydaların 6.3.1-1-ci yarımbəndinin tələbləri nəzərə alınmaqla hesablanır;

7.2.2.~~ümumi ehtiyatlar (balans aktivlərinin və balansdankənar öhdəliklərin risk dərəcəsi üzrə ölçülmüş məbləğinin (aparılan “tutulmalar”dan sonra) 1,25 faizinədək, lakin “adi” ehtiyatların məbləğindən çox olmayan hissəsi)~~ “adi” ehtiyatlar (risk dərəcəsi üzrə ölçülmüş aktivin 1,25 faizinədək hissəsi);

7.2.3~~. qeyri-kumulyativ müddətsiz imtiyazlı səhmlər istisna olmaqla, kapitalın hibrid elementləri.~~bank tərəfindən emissiya edilən və bu Qaydaların 7.3-cü bəndində müəyyən edilmiş tələblərə cavab verən kapitalın elementləri, o cümlədən hibrid elementləri;

7.2.4. bu Qaydaların 7.2.3-cü yarımbəndində nəzərdə tutulmuş tələblərə uyğun gələn səhmlər üzrə kapital artıqlığı.

7.3. Bu Qaydaların 6-1.3.1-ci, 6-1.3.3-cü, 6-1.3.5-ci, 6-1.3.8-ci yarımbəndlərində göstərilən və aşağıda müəyyən edilmiş azı bütün meyarlara cavab verən kapitalın elementləri II dərəcəli kapitala daxil edilir:~~Bu Qaydaların 7.2.3-cü yarımbəndində nəzərdə tutulmuş kapitalın hibrid elementləri II dərəcəli bank kapitalına daxil edilməsi üçün onlar ən azı aşağıdakı meyarlara cavab verməlidir:~~

7.3.1. kreditorların tələbi ilə geri çağırılması~~nın~~ qeyri-mümkündür~~lüyü~~;

~~7.3.2. bankın bu alətlər üzrə faiz ödənişlərini təxirə salmaq hüququnun olması;~~

7.3.3~~. bank ləğv edildikdə bu alətlər üzrə öhdəliklərin ödənilməsinin bütün digər kreditorların tələbləri tam ödənildikdən sonra icra olunması~~bank ləğv edildikdə bu elementlər üzrə öhdəliklərin ödənilməsi Əlavə I dərəcəli kapitala daxil edilən borc öhdəliklərinin icrasından əvvəl, lakin bankın əmanətçilərinin və digər kreditorlarının tələbləri tam ödənildikdən sonra müəyyən edilməli və ya ödənişlərlə bağlı hər hansı imtiyaz nəzərdə tutulmamalıdır;

~~7.3.4. bu alətlər üzrə öhdəliklərin bankın öz aktivləri ilə icrasına hər hansı formada təminat verilməməsi;~~

~~7.3.5. kapital adekvatlığı göstəricilərinin bu Qaydalarla müəyyən edilmiş minimum səviyyədən aşağı olduğu halda bankın bu alətlər üzrə öhdəliklərinin icrasını təxirə salmaq hüququnun olması;~~

7.3.6.~~bankın bu alətlər üzrə öhdəliklərinin əsas məbləğinin icra müddəti bu cür öhdəliklərin yaranma tarixindən ən azı 5 (beş) ildən sonra və ya müddətsiz şərti ilə müəyyən olunması.~~ bu elementlər üzrə öhdəliklərin əsas məbləğinin icra müddəti bu cür öhdəliklərin yaranma tarixindən azı 5 (beş) ildən sonra müəyyən olunur və bu Qaydaların 6-1.3.5-ci yarımbəndinin tələbi nəzərə alınmaqla vaxtından əvvəl geri ödəməni təşviq edəcək hər hansı şərt (məsələn, dividend və faiz artımı) müəyyən olunmamalıdır;

7.3.7. bu elementlər bank və ya banka aidiyyəti olan şəxs tərəfindən əldə edilmir və ya bu elementlərin alışı birbaşa və ya dolayı yolla bank tərəfindən maliyyələşdirilmir (məsələn, kredit, qarantiya və s);

7.3.8. bankın rezolyusiyası çərçivəsində Mərkəzi Bankın qərarı əsasında bu elementlər silinə və ya adi səhmə çevrilə bilər;

7.3.9. bu elementlər üzrə öhdəliklərin əsas məbləğinin vaxtından əvvəl ödənilməsi Mərkəzi Bankın razılığı əsasında icra edilir. Mərkəzi Bank tərəfindən bu cür razılığın verilməsi zamanı bu Qaydaların 6-1.3.5.1-ci və 6-1.3.5.2-ci yarımbəndlərinin tələbləri nəzərə alınır.

7.4. *II dərəcəli kapitala daxil olan elementlər* ~~*Kapitalın hibrid elementləri, o cümlədən subordinasiya borc öhdəlikləri*~~ II dərəcəli kapitalda ödəniş müddətinin başa çatmasına 5 (beş) il qaldıqda qalıq müddətinin birinci ilinin əvvəlindən başlayaraq hər il 20 (iyirmi) faiz azaldılmaqla nəzərə alınır.

~~*7.5. II dərəcəli kapitalın hesablanmasında nəzərə alınan kapitalın hibrid elementlərinin məbləği I dərəcəli kapitalın (aparılan “tutulmalar”dan sonra) 50 (əlli) faizindən çox olmamalıdır.*~~

*7.6. Bu Qaydaların 6-1.4-cü və 6-1.5-ci bəndlərinin tələbləri II dərəcəli kapitalın elementlərinə də şamil edilir.*

*7.7. Bu Qaydaların 6-1-ci və 7-ci hissələrində Mərkəzi Bankdan razılığın əldə edilməsi nəzərdə tutulduqda Mərkəzi Bank bu cür müraciətlərə daxil olduğu tarixdən 30 (otuz) gün ərzində baxır və qərarını banka yazılı surətdə təqdim edir. Razılığın verilməsindən imtina olunduqda Mərkəzi Bank öz qərarını əsaslandırır.*

## 8. Kapitaldan tutulmalar

8.1. Kapitalın adekvatlıq əmsalları və leverec əmsalı hesablanmazdan əvvəl *Əsas I dərəcəli kapitala, Əlavə I dərəcəli kapitala və II dərəcəli kapitala* ~~*kapitaldan*~~ aşağıda göstərilən~~*lər*~~ *qaydada düzəlişlər edilir*~~*çıxılır (“tutulmalar” aparılır)*~~:

~~*8.1.1. I dərəcəli kapitaldan – bütün “qeyri-maddi” aktivlərin xalis dəyəri (amortizasiyası nəzərə alınmaqla) və Maliyyə Hesabatlarının Beynəlxalq Standartları ilə müəyyən olunmuş təxirə salınmış vergi aktivlərinin məbləği;*~~

~~*8.1.2. məcmu kapitaldan – bankın törəmə cəmiyyətlərinə, habelə digər hüquqi şəxslərin kapitalına vəsait qoyuluşları (bu investisiyalar üçün yaradılmış “məqsədli” ehtiyatlar istisna olmaqla).*~~

*8.1.3. əsas vəsaitlərin yenidən qiymətləndirilməsindən yaranan artıqlıq – tam həcmdə Əsas I dərəcəli kapitaldan çıxılır;*

*8.1.4. bütün “qeyri-maddi” aktivlərin xalis dəyəri (amortizasiyası nəzər alınmaqla) – tam həcmdə Əsas I dərəcəli kapitaldan çıxılır;*

*8.1.5. təxirə salınmış vergi aktivləri – bu Qaydaların 8.1.5.1-ci və 8.1.5.2-ci yarımbəndlərinin tələblərinə uyğun olaraq:*

*8.1.5.1. keçmiş illərin vergi zərərlərinin gələcək dövrlərə ötürülməsi nəticəsində yarandıqda - tam həcmdə Əsas I dərəcəli kapitaldan çıxılır;*

*8.1.5.2. müvəqqəti fərqlərdən (məsələn, ehtiyatlardan, komissiya gəlirlərindən, amortizasiya üsulunun seçimindən və s.) yarandıqda – bu cür təxirə salınmış vergi aktivlərinin məbləğinin bankın Əsas I dərəcəli kapitalının 10 faizindən artıq olan hissəsi bankın Əsas I dərəcəli kapitalından çıxılır (bu yarımbəndin məqsədi üçün Əsas I dərəcəli kapital bu Qaydaların 8.1.3-cü, 8.1.4-cü, 8.1.5.1-ci, 8.1.6-cı, 8.1.7-ci və 8.1.8-ci yarımbəndlərində müəyyən edilmiş tutulmalar aparıldıqdan sonra nəzərə alınır).*

*8.1.6. pul vəsaitlərinin hərəkəti üzrə hedcinq ehtiyatları – hesablamada pul vəsaitlərinin hərəkəti üzrə hedcinq ehtiyatlarının məbləği müsbət olduqda bu məbləğ tam həcmdə Əsas I dərəcəli kapitaldan çıxılır, mənfi olduqda isə Əsas I dərəcəli kapitala əlavə edilir;*

*8.1.7. maliyyə təşkilatlarının kapitalına çarpaz investisiyalar – tam həcmdə bu Qaydaların 8.1.7.1 - 8.1.7.4-cü yarımbəndlərinin tələblərinə uyğun olaraq “Müvafiq kapital maddəsindən çıxılma” yanaşması əsasında:*

*8.1.7.1. adi səhmlərə investisiyalar – Əsas I dərəcəli kapitaldan çıxılır;*

*8.1.7.2. bu Qaydaların 6-1.3-cü bəndində müəyyən edilmiş tələblərə uyğun olan kapitalın digər elementlərinə investisiyalar – Əlavə I dərəcəli kapitaldan çıxılır;*

*8.1.7.3. bu Qaydaların 7.3-cü bəndində müəyyən edilmiş tələblərə uyğun olan kapitalın digər elementlərinə investisiyalar – II dərəcəli kapitaldan çıxılır;*

*8.1.7.4. bu Qaydaların 8.1.7.1 – 8.1.7.3-cü yarımbəndlərinə aid olmayan investisiyalar – Əsas I dərəcəli kapitaldan çıxılır.*

*8.1.8. maliyyə təşkilatlarının kapitalına investisiyaların məbləği bu Qaydaların 8.1.8.1-8.1.8.2-ci yarımbəndlərinin tələblərinə uyğun olaraq:*

*8.1.8.1. qismən əhəmiyyətli və ya əhəmiyyətsiz investisiyalar - bütün bu cür investisiyaların məcmu miqdarının bankın Əsas I dərəcəli kapitalının 10 faizindən artıq olan hissəsi bu Qaydaların 8.1.7-ci yarımbəndində müəyyən edilmiş "Müvafiq kapital maddəsindən çıxılma" yanaşması əsasında bankın kapitalından (maliyyə təşkilatlarının müvafiq kapital elementinə qoyulmuş investisiyanın çəkisinə uyğun olaraq) çıxılır (bu yarımbəndin məqsədləri üçün hesablamada Əsas I dərəcəli kapital bu Qaydaların 8.1.3 – 8.1.7-ci yarımbəndlərində (8.1.5.2-ci yarımbənddə müəyyən edilmiş tutulmalar istisna olmaqla) müəyyən edilmiş tutulmalar aparıldıqdan sonra nəzərə alınır).*

*8.1.8.2. əhəmiyyətli investisiyaların məbləği - bu Qaydaların 8.1.8.2.1-8.1.8.2.3-cü yarımbəndlərinin tələblərinə uyğun olaraq:*

*8.1.8.2.1. maliyyə təşkilatlarının əsas I dərəcəli kapitalına investisiyaların məcmu miqdarının bankın Əsas I dərəcəli kapitalının 10 faizindən artıq olan hissəsi bankın Əsas I dərəcəli kapitalından çıxılır;*

*8.1.8.2.2. Əsas I dərəcəli kapitala investisiyalar istisna olmaqla maliyyə təşkilatlarına digər kapital investisiyaları tam həcmdə bu Qaydaların 8.1.7-ci yarımbəndində müəyyən edilmiş "Müvafiq kapital maddəsindən çıxılma" yanaşması əsasında bankın kapitalından çıxılır;*

*8.1.8.2.3. bu Qaydaların 8.1.8.2-ci yarımbəndinin məqsədləri üçün hesablamada Əsas I dərəcəli kapital bu Qaydaların 8.1.3 – 8.1.7-ci və 8.1.8.1-ci yarımbəndlərində (8.1.5.2-ci yarımbənddə müəyyən edilmiş tutulmalar istisna olmaqla) müəyyən edilmiş tutulmalar aparıldıqdan sonra nəzərə alınır;*

*8.1.9. maliyyə təşkilatları istisna olmaqla digər hüquqi şəxslərin kapitalına birbaşa və ya dolayı investisiyaların məbləği – tam həcmdə Əsas I dərəcəli kapitaldan çıxılır.*

*8.2. Bu Qaydaların 8.1.7-ci və 8.1.8-ci yarımbəndlərində müəyyən edilmiş tutulmalar aparılan zaman II dərəcəli kapitalın həcmi yetərli olmadıqda tutulmaların qalan hissəsi Əlavə I dərəcəli kapitaldan, Əlavə I dərəcəli kapitalın həcmi yetərli olmadıqda isə tutulmaların qalan hissəsi Əsas I dərəcəli kapitaldan tutulur.*

*8.3. İnvestisiyalar Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq qiymətləndirilir.*

*8.4. Bu Qaydaların 8.1.7 – 8.1.9-cu yarımbəndlərində müəyyən edilmiş tutulmalar aparılan zaman həmin investisiyalar üçün yaradılmış "məqsədli" ehtiyatlar istisna edilir.*

## *8-1. Kapitalın adekvatlıq əmsallarına dair tələblər*

*8-1.1. Banklar tərəfindən kapitalın adekvatlıq əmsalları aşağıdakı hədlərdən az olmayan səviyyədə saxlanılır:*

*8-1.1.1. Əsas I dərəcəli kapitalın adekvatlıq əmsalı – Əsas I dərəcəli kapitalın risk dərəcəsi üzrə ölçülmüş aktivlərə nisbəti 4.5 (dörd tam onda beş) faiz olmaqla;*

*8-1.1.2. I dərəcəli kapitalın adekvatlıq əmsalı – I dərəcəli kapitalın risk dərəcəsi üzrə ölçülmüş aktivlərə nisbəti 6 (altı) faiz olmaqla;*

*8-1.1.3. məcmu kapitalın adekvatlıq əmsalı – məcmu kapitalın risk dərəcəsi üzrə ölçülmüş aktivlərə nisbəti 8 (səkkiz) faiz olmaqla.*

*8-1.2. Kapitalın adekvatlıq əmsallarının hesablanması zamanı istifadə edilən risk dərəcəsi üzrə ölçülmüş aktivlər kredit riski, əməliyyat riski və bazar riski üzrə ölçülmüş aktivlərin cəminə bərabərdir.*

## *8-2. Konservasiya kapital buferi*

*8-2.1. Banklar tərəfindən bu Qaydaların 8-1.1-ci bəndində müəyyən edilmiş kapitalın minimum adekvatlıq əmsalları üzrə tələbdən əlavə 2.5 (iki tam onda beş) faiz həddində konservasiya kapital buferi saxlanılır. Konservasiya kapital buferinin tətbiqindən sonra kapitalın adekvatlıq əmsallarının yeni hədləri aşağıdakı kimi müəyyən edilir:*

*8-2.1.1. Əsas I dərəcəli kapitalın adekvatlıq əmsalı – 7 (yeddi) faiz;*

*8-2.1.2. I dərəcəli kapitalın adekvatlıq əmsalı – 8.5 (səkkiz tam onda beş) faiz;*

*8-2.1.3. məcmu kapitalın adekvatlıq əmsalı – 10.5 (on tam onda beş) faiz.*

*8-2.2. Bank tərəfindən konservasiya kapital buferi bu Qaydaların 8-2.1-ci bəndində müəyyən edilmiş həddən aşağı düşdükdə mükafat və dividend ödənişi, o cümlədən aralıq dividend ödənişi aşağıdakı cədvəldə müəyyən edilmiş qaydada məhdudlaşdırılır:*

| ***Konservasiya kapital buferinin həddi*** | ***Xalis mənfəətin bölüşdürülə bilən hissəsi*** |
| --- | --- |
| *2.5% olduqda* | *Xalis mənfəətin bölüşdürülməsi üzrə məhdudiyyət tətbiq edilmir* |
| *1.875%-dən artıq və 2.5%-dən az olduqda* | *Xalis mənfəətin 60%-dək hissəsi bölüşdürülə bilər* |
| *1.25%-dən artıq, lakin 1.875%-dən çox olmadıqda* | *Xalis mənfəətin 40%-dək hissəsi bölüşdürülə bilər* |
| *0.625%-dən artıq, lakin 1.25%-dən çox olmadıqda* | *Xalis mənfəətin 20%-dək hissəsi bölüşdürülə bilər* |
| *0.625% və ya ondan az olduqda* | *Xalis mənfəətin bölüşdürülməsinə yol verilmir* |

*8-2.3. Bu Qaydaların 8-2.2-ci bəndindəki cədvəldə müəyyən edilmiş konservasiya kapital buferinin həddi aşağıdakı düsturla müəyyən edilir:*

*konservasiya buferinin həddi = Minimum [(faktiki Əsas I dərəcəli kapitalın adekvatlıq əmsalı – Əsas I dərəcəli kapitalın adekvatlıq əmsalı üzrə tələb); (faktiki I dərəcəli kapitalın adekvatlıq əmsalı – I dərəcəli kapitalın adekvatlıq əmsalı üzrə tələb); (faktiki məcmu kapitalın adekvatlıq əmsalı – məcmu kapitalın adekvatlıq əmsalı üzrə tələb); 2.5%]*

*Burada: **faktiki** Əsas I dərəcəli, I dərəcəli və məcmu kapitalın adekvatlıq əmsalları dedikdə bankın hesabat tarixinə sözügedən əmsallar üzrə göstəricisi nəzərdə tutulur. Əsas I dərəcəli, I dərəcəli və məcmu kapitalın adekvatlıq əmsalları üzrə **tələb** dedikdə isə bu Qaydaların 8-1.1-ci bəndində müəyyən edilmiş minimum hədlər ilə bu Qaydaların 8-3-cü və 8-4-cü hissələrində müəyyən edilmiş kontr-tsiklik kapital buferi və sistem əhəmiyyətli bank kapital buferinin cəmi nəzərdə tutulur (məsələn, fərz edək ki, kontr-tsiklik kapital buferi 0.5%-dir, sistem əhəmiyyətli bankın kapital buferi 1%-dir, bu halda bu tələb Əsas I dərəcəli kapital üzrə 6%, I dərəcəli kapital üzrə 7.5% və məcmu kapital üzrə isə 9.5% təşkil edəcəkdir).*

*8-2.4. Bu Qaydaların 8-2.2-ci bəndinin məqsədləri üçün xalis mənfəət dedikdə Mərkəzi Bankın 2023-cü il 28 avqust tarixli 41/1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Banklarda korporativ idarəetmə Standartları"nda mükafatlandırma və dividend ödənişləri üzrə tələb olunan mənfəət nəzərdə tutulur.*

*8-2.5. Bankın konservasiya kapital buferi bu Qaydaların 8-2.1-ci bəndində müəyyən edilmiş həddən aşağı düşdükdə bank bu barədə Mərkəzi Bankı dərhal məlumatlandırır və pozuntudan sonrakı 5 (beş) iş günü ərzində Mərkəzi Banka bu həddin bərpa olunmasına dair plan təqdim edir. Bərpa planında azı aşağıdakı məsələlər müəyyən olunur:*

*8-2.5.1. bankın qiymətləndirmə nəticələri və proqnozları;*

*8-2.5.2. konservasiya kapital buferinin artırılması üzrə bankın nəzərdə tutduğu tədbirlər;*

*8-2.5.3. konservasiya kapital buferinə tam əməl olunması üçün tələb olunan müddət;*

*8-2.5.4. bərpa planının icrasının dəqiqləşdirilməsi üçün Mərkəzi Bank tərəfindən digər məlumatlar tələb edildikdə, həmin məlumatlar.*

*8-2.6. Təqdim edilmiş bərpa planı 15 (on beş) iş günü ərzində Mərkəzi Bank tərəfindən təhlil edilir və bank tərəfindən təqdim edilmiş müddət və tədbirlər ağlabatan olduqda Mərkəzi Bank bərpa planını təsdiq edir.*

*8-2.8. Bank mükafat (o cümlədən təxirə salınmış mükafatlar) və dividend (aralıq dividend) ödənişləri nəticəsində Əsas I dərəcəli, I dərəcəli və məcmu kapitalın adekvatlıq əmsalları üzrə tələbin pozuntusuna yol verməməlidir. Bu bəndin məqsədləri üçün Əsas I dərəcəli, I dərəcəli və məcmu kapitalın adekvatlıq əmsalları üzrə tələb dedikdə bu Qaydaların 8-1.1-ci bəndində müəyyən edilmiş minimum hədlər ilə bu*

Qaydaların 8-3-cü və 8-4-cü hissələrində müəyyən edilmiş kontr-tsiklik kapital buferi və sistem əhəmiyyətli bank kapital buferinin cəmi nəzərdə tutulur.

### 8-3. Kontr-tsiklik kapital buferi

8-3.1. İqtisadi tsikl və kredit portfelinin artım tempindən asılı olaraq bu Qaydaların 8-2.1-ci bəndində müəyyən edilmiş minimum kapitalın adekvatlıq əmsallarının üzərinə 0 – 2.5% arasında kontr-tsiklik kapital buferi tətbiq edilir. Kontr-tsiklik kapital buferinin hesablanması bu Qaydalara 2 nömrəli Əlavə ilə müəyyən edilir.

8-3.2. Kontr-tsiklik kapital buferi tələbi artırıldıqda, yeni tələb artımın elan edildiyi tarixdən azı 1 (bir) ay sonra, azaldıldıqda isə azalmanın elan edildiyi tarixdən etibarən qüvvəyə minir.

8-3.3. Kontr-tsiklik kapital buferi Mərkəzi Bank tərəfindən bu Qaydalara 2 nömrəli Əlavədə göstərilən qaydada rüblük əsasda hesablanır və Mərkəzi Bankın rəsmi internet səhifəsində açıqlanır.

### 8-4. Sistem əhəmiyyətli bank kapital buferi

8-4.1. Sistem əhəmiyyətli bank "sistem əhəmiyyətli bank kapital buferi"ni bankın sistem əhəmiyyətliliyi indeksinə uyğun olaraq aşağıdakı cədvəldə müəyyən edilmiş hədlərdən az olmayan səviyyədə saxlayır:

| Sistem əhəmiyyətli bankın daxil olduğu qrup | Sistem əhəmiyyətliliyi indeksi | Minimum sistem əhəmiyyətli bank kapital buferi |
|---|---|---|
| 4-cü qrup | 2900-dən yuxarı, lakin 3700-dən artıq olmadıqda | 4% |
| 3-cü qrup | 2100-dən yuxarı, lakin 2900-dən artıq olmadıqda | 3% |
| 2-ci qrup | 1300-dən yuxarı, lakin 2100-dən artıq olmadıqda | 2% |
| 1-ci qrup | 420 və ondan yuxarı, lakin 1300-dən artıq olmadıqda | 1% |

8-4.2. Bankın sistem əhəmiyyətliliyi indeksi Mərkəzi Bankın 2025-ci il 19 mart tarixli 11 nömrəli Qərarı ilə təsdiq edilmiş "Bankın sistem əhəmiyyətli bank kimi qiymətləndirilməsi Meyarları" əsasında müəyyən edilir.

8-4.3. Sistem əhəmiyyətli banklardan azı birinin sistem əhəmiyyətliliyi indeksi bu Qaydaların 8-4.1-ci bəndində müəyyən edilmiş cədvəldəki 4-cü qrupa təsadüf etdikdə, həmin cədvəldə qruplar üzrə müəyyən edilmiş sistem əhəmiyyətliliyi indeksi intervalı əsasında yeni boş qrup (5-ci qrup) yaradılır. Bu proses hər boş qrupa sistem əhəmiyyətli banklardan azı birinin sistem əhəmiyyətliliyi indeksi təsadüf etdikdə davam etdirilir (məsələn, 5-ci qrupa sistem əhəmiyyətli bank aid edildikdə yeni boş qrup (6-cı qrup) yaradılır və s.).

8-4.4.bu Qaydaların 8-4.3-cü bəndində müəyyən edilmiş qaydada yaradılmış yeni boş qrup üzrə minimum "sistem əhəmiyyətli bank kapital buferi" tələbi özündən əvvəlki qrup üzrə müəyyən edilmiş minimum "sistem əhəmiyyətli bank kapital buferi" tələbindən 1(bir) faiz bəndi artıq müəyyən edilir (məsələn, yeni yaradılacaq 5-ci qrup üzrə 5 (beş) faiz, yeni yaradılacaq 6-cı qrup üzrə 6 (altı) faiz və s.).

8-4.5. Sistem əhəmiyyətli bankın bu Qaydaların 8-4.1-ci bəndi ilə müəyyən edilmiş "sistem əhəmiyyətli bank kapital buferi" bu Qaydaların 8-3.1-ci bəndində müəyyən edilmiş minimum kapitalın adekvatlıq əmsallarının üzərinə əlavə edilir.

### 9. Kredit riskləri üzrə minimum kapital tələbi

~~**Aktivlərin risk qrupları**~~

*9.1. Kredit riskləri üzrə ölçülmüş aktivlər balans aktivlərinin və balansdankənar öhdəliklərin hər birinin risk dərəcəsinə əsasən qiymətləndirilmiş dəyəri əsasında hesablanır. Kredit riski üzrə ölçülmüş aktivlər hesablanmazdan əvvəl aktivlərdən həmin aktivlər üzrə mümkün zərərin ödənilməsi üçün yaradılmış "məqsədli" ehtiyatlar, habelə bu Qaydanın 8-ci hissəsində müəyyən edilmiş tutulmalar aparılır (çıxılır).*

9.1-*1.* Bankın balans aktivləri və balansdankənar öhdəlikləri növündən, xüsusiyyətindən, habelə öhdəliyin təminatından asılı olaraq müxtəlif risk dərəcələrinə aid edilir.

9.2. Aktivlərin və balansdankənar öhdəliklərin təminatı qismində qiymətli kağızlar çıxış etdikdə risk dərəcələrinin ölçülməsi zamanı qiymətli kağızların bazar dəyəri nəzərə alınır.

9.3. Balans aktivləri risk qruplarına aşağıdakı xüsusiyyətlərindən asılı olaraq aid edilir:

9.3.1. 0 (sıfır) faizli (0,0 əmsallı) risk qrupu:

9.3.1.1. bankın kassalarında, xəzinələrində, onun nümayəndəlik, şöbə və filiallarında, bankomatlarda və digər ödəniş terminallarında, habelə olduğu yerdən təyinat yerinə daşınmada olan Azərbaycan Respublikasının milli valyutası, bank metalları, beynəlxalq nüfuzlu reytinq agentlikləri (Standard & Poor`s, Fitch Ratings, Moody`s, bundan sonra - beynəlxalq reytinq agentlikləri) tərəfindən verilmiş minimum "AA-" ölkə (suveren) borc reytinqinə (və ya buna ekvivalent digər reytinq dərəcəsinə) malik ölkələrin valyutası, habelə bu ölkələrin hökumətlərinin və ya mərkəzi banklarının buraxdıqları qiymətli kağızlar və onlara qarşı olan birbaşa tələblər, *yaxud aktivin bu ölkələrin hökumətləri və ya mərkəzi bankları tərəfindən qeyd-şərtsiz təmin olunmuş hissəsi;*[9]

9.3.1.2. bankın Mərkəzi Bankdakı hesablarında (müxbir, depozit və s.) olan vəsait, habelə Mərkəzi Bank ilə bağlanan repo əqdləri;

9.3.1.3. Azərbaycan Respublikası adından bağlanmış müqavilələr üzrə yaranan birbaşa tələblər, dövlət qiymətli kağızları, Mərkəzi Bank tərəfindən buraxılan qiymətli kağızlar;

9.3.1.4. Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun (bundan sonra – Fond) buraxdığı təmin edilmiş qiymətli kağızlar;

9.3.1.5. kreditin bankın hesablarında girov qoyulmuş Azərbaycan Respublikasının milli valyutası, bank metalları və ya beynəlxalq reytinq agentlikləri tərəfindən verilmiş minimum "AA-" ölkə (suveren) borc reytinqinə (və ya buna ekvivalent digər reytinq dərəcəsinə) malik ölkələrin valyutası ilə təmin olunmuş hissəsi;

9.3.1.6. beynəlxalq reytinq agentlikləri tərəfindən verilmiş "AAA" kredit reytinqinə (və ya buna ekvivalent digər reytinq dərəcəsinə) malik çoxtərəfli inkişaf banklarına qarşı birbaşa tələblər, yaxud tələblərin bu təşkilatlar tərəfindən qeyd-şərtsiz öhdəliyi ilə və ya həmin təşkilatlar tərəfindən buraxılmış qiymətli kağızlarla təmin olunmuş hissəsi;

~~9.3.1.7. Fondun zəmanəti ilə manatla verilmiş və qeyri-işlək hissəsi ümumi portfelin 5%-dək olan sahibkarlara verilmiş kreditlərinin Azərbaycan Respublikası və ya Mərkəzi Bank tərəfindən təmin olunmuş hissəsi;~~ [10]

9.3.1.8. Fondun zəmanəti ilə verilmiş ipoteka kreditləri;

*9.3.1.9. aktivin Azərbaycan Respublikasının dövlət qiymətli kağızları, dövlət və Mərkəzi Bankın zəmanəti, habelə Mərkəzi Bank tərəfindən buraxılmış qiymətli kağızlar ilə qeyd-şərtsiz təmin olunmuş hissəsi;*[11]

*9.3.1.10. Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən Təhsil Tələbə Krediti Fondunun vəsaiti hesabına verilmiş təhsil tələbə kreditləri (bankın maliyyə öhdəliyi daşıdığı hallar istisna olmaqla).*[12]

9.3.2. 20 (iyirmi) faizli (0,2 əmsallı) risk qrupu:

9.3.2.1. 0 (sıfır) faizli risk qrupuna aid edilməyən və beynəlxalq reytinq agentlikləri tərəfindən verilmiş minimum "A-" ölkə (suveren) borc reytinqinə (və ya buna ekvivalent digər

reytinq dərəcəsinə) malik ölkələrin valyutası, habelə bu ölkələrin hökumətlərinin və ya mərkəzi banklarının buraxdıqları qiymətli kağızlar və onlara qarşı olan birbaşa tələblər;

9.3.2.2. beynəlxalq reytinq agentlikləri tərəfindən verilmiş minimum "AA-" kredit reytinqinə (və ya buna ekvivalent digər reytinq dərəcəsinə) malik depozit və ya digər maliyyə-kredit təşkilatlarına qarşı tələblər və onlar tərəfindən qeyd-şərtsiz təmin olunmuş digər aktivlər;

9.3.2.3. tələblərin beynəlxalq reytinq agentlikləri tərəfindən verilmiş minimum "AA-" ölkə (suveren) borc reytinqinə (və ya buna ekvivalent digər reytinq dərəcəsinə) malik ölkələrin yerli hakimiyyət, yaxud bələdiyyə orqanları tərəfindən buraxılan qiymətli kağızlarla təmin olunmuş hissəsi (bu tələblərin ödənilməsi mənbəyi kommersiya layihələrindən əldə edilən gəlirlər deyil, ümumi büdcə daxilolmaları hesabına formalaşmalıdır);

9.3.2.4. 0 (sıfır) faizli risk qrupuna aid edilməyən və beynəlxalq reytinq agentlikləri tərəfindən verilmiş minimum investisiya reytinqinə malik çoxtərəfli inkişaf banklarına qarşı birbaşa tələblər, yaxud tələblərin bu təşkilatlar tərəfindən qeyd-şərtsiz öhdəliyi ilə və ya həmin təşkilat tərəfindən buraxılmış qiymətli kağızlarla təmin olunmuş hissəsi;

9.3.2.5. aktivlərin tam və ya hər hansı bir hissəsi, əgər onlar üçüncü şəxs tərəfindən buraxılmış qiymətli kağızlarla təmin olunmuşsa və bu qiymətli kağızların ödənilməsinə öz növbəsində Azərbaycan Respublikası, Mərkəzi Bank, yaxud beynəlxalq reytinq agentlikləri tərəfindən verilmiş minimum "A-" ölkə (suveren) borc reytinqinə (və ya buna ekvivalent digər reytinq dərəcəsinə) malik ölkələrin hökumətləri və ya mərkəzi bankları tərəfindən qeyd-şərtsiz təminat verilmişsə;

9.3.2.6. 0 (sıfır) faizli risk qrupuna aid edilməyən və üçüncü şəxslərin banka olan borclarının Azərbaycan Respublikası, Mərkəzi Bank, yaxud beynəlxalq reytinq agentlikləri tərəfindən verilmiş minimum "A-" ölkə (suveren) borc reytinqinə (və ya buna ekvivalent digər reytinq dərəcəsinə) malik ölkələrin hökumətləri və ya mərkəzi bankları tərəfindən qeyd-şərtsiz təmin olunmuş hissəsi;

9.3.2.7. Fondun buraxdığı təmin edilməmiş qiymətli kağızlar;

*9.3.2.8. dövlət tərəfindən yaradılmış və bank kreditləri üzrə öhdəliyin yerinə yetirilməsinə zəmanət verən fondların və digər ixtisaslaşmış dövlət qurumlarının zəmanəti ilə manatla verilmiş biznes, o cümlədən kənd təsərrüfatı kreditlərinin qeyd-şərtsiz təmin edilmiş hissəsi;*[13]

~~9.3.2.9. Agentliyin təminatı ilə verilmiş və mikrokreditlərin qeyri-işlək məbləği qalıq portfelin 12%-dək olan hissəsini təşkil edən mikrokreditlərin təmin edilmiş hissəsi;~~ [14]

9.3.2.10. beynəlxalq reytinq agentlikləri tərəfindən verilmiş minimum "AA-" kredit reytinqinə (və ya buna ekvivalent digər reytinq dərəcəsinə) malik ~~uzunmüddətli~~ korporativ qiymətli kağızlar.[15]

~~9.3.2.11. beynəlxalq reytinq agentlikləri tərəfindən verilmiş minimum "A-1" kredit reytinqinə (və ya buna ekvivalent digər reytinq dərəcəsinə) malik qısamüddətli korporativ qiymətli kağızlar.~~[16]

9.3.3. 35 (otuz beş) faizli (0,35 əmsallı) risk qrupu:

9.3.3.1. Fondun vəsaiti hesabına verilmiş ipoteka kreditləri;

*9.3.3.2. beynəlxalq reytinq agentlikləri tərəfindən verilmiş kredit reytinqi Azərbaycan Respublikasının ölkə (suveren) borc reytinqindən maksimum 3 (üç) pillə aşağı olan yerli banklara (Azərbaycan Respublikasında fəaliyyət göstərən banklara və xarici bankların yerli filiallarına) qarşı müddəti 6 (altı) aydan çox olmayan tələblər (restrukturizasiya olunmuş tələblər istisna olmaqla).*[17]

9.3.4. 50 (əlli) faizli (0,5 əmsallı) risk qrupu:

9.3.4.1. 20 (iyirmi) faizli risk qruplarına aid edilməyən və beynəlxalq reytinq agentlikləri tərəfindən verilmiş minimum investisiya reytinqinə malik ölkələrin valyutası, habelə bu ölkələrin hökumətlərinin və ya mərkəzi banklarının buraxdıqları qiymətli kağızlar və onlara qarşı olan birbaşa tələblər;

9.3.4.2. 20 (iyirmi) faizli risk qrupuna aid edilməyən və beynəlxalq reytinq agentlikləri tərəfindən verilmiş minimum “A-” kredit reytinqinə (və ya buna ekvivalent digər reytinq dərəcəsinə) malik depozit və ya digər maliyyə-kredit təşkilatlarına qarşı tələblər;

9.3.4.3. tələblərin 20 (iyirmi) faizli risk qrupuna aid edilməyən və beynəlxalq reytinq agentlikləri tərəfindən verilmiş minimum “A-” ölkə (suveren) borc reytinqinə (və ya buna ekvivalent digər reytinq dərəcəsinə) malik ölkələrin yerli hakimiyyət, yaxud bələdiyyə orqanları tərəfindən buraxılan qiymətli kağızlarla təmin olunmuş hissəsi (bu tələblərin ödənilməsi mənbəyi kommersiya layihələri üzrə alınan gəlirlər olur);

9.3.4.4. Bankın vəsaiti və digər mənbələr hesabına verilmiş ipoteka kreditləri;

9.3.4.5. beynəlxalq reytinq agentlikləri tərəfindən verilmiş minimum “A-” kredit reytinqinə (və ya buna ekvivalent digər reytinq dərəcəsinə) malik ~~uzunmüddətli~~ korporativ qiymətli kağızlar;

~~9.3.4.6. beynəlxalq reytinq agentlikləri tərəfindən verilmiş minimum “A-2” kredit reytinqinə (və ya buna ekvivalent digər reytinq dərəcəsinə) malik qısamüddətli korporativ qiymətli kağızlar;~~

9.3.4.7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 dekabr 2016-cı il tarixli 534 nömrəli Qərarı ilə təsdiq edilmiş “Gəlirlər və xərclər smetaları hazırlanmalı, təsdiq edilməli və icrası üzrə monitorinq aparılmalı olan iri dövlət şirkətlərinin Siyahısı”nda nəzərdə tutulan və beynəlxalq reytinq agentlikləri tərəfindən verilmiş kredit reytinqi Azərbaycan Respublikasının ölkə (suveren) borc reytinqindən maksimum 1 (bir) pillə aşağı olan hüquqi şəxslərin buraxdığı qiymətli kağızlar;

9.3.4.8. 20 (iyirmi) faizli risk qruplarına aid edilməyən və Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən olunmuş kiçik və orta sahibkarlıq subyektlərinə verilən və təyinatı üzrə istifadə olunması müvafiq sənədlərlə təsdiq edilmiş milli valyutada biznes*, o cümlədən kənd təsərrüfatı* kreditləri;[18]

9.3.4.9. 20 (iyirmi) faizli risk qruplarına aid edilməyən və ixracın (qeyri-neft sektoru üzrə) maliyyələşməsinə yönəlmiş və təyinatı üzrə istifadə olunması müvafiq sənədlərlə təsdiq edilmiş milli valyutada biznes kreditləri*;*

*9.3.4.10. 35 (otuz beş) faizli risk qrupuna aid edilməyən və müddəti 6 (altı) aydan çox olmayan yerli banklara (Azərbaycan Respublikasında fəaliyyət göstərən banklara və xarici bankların yerli filiallarına) qarşı tələblər (restrukturizasiya olunmuş tələblər istisna olmaqla).*[19]

9.3.5. 75 (yetmiş beş) faizli (0,75 əmsallı) risk qrupu:

9.3.5.1. ixracın (qeyri-neft sektoru üzrə) maliyyələşməsinə yönəlmiş və təyinatı üzrə istifadə olunması sənədlərlə təsdiq edilmiş xarici valyutada biznes kreditləri;

*9.3.5.2. 20 (iyirmi) faizli risk qruplarına aid edilməyən mikro sahibkarlara milli valyutada verilmiş kənd təsərrüfatı kreditləri.*[20]

9.3.6. 100 (yüz) faizli (1,0 əmsallı) risk qrupu:

9.3.6.1. Naxçıvan Muxtar Respublikası, Azərbaycan Respublikasının yerli hakimiyyət və ya bələdiyyə orqanları tərəfindən buraxılmış qiymətli kağızlarla təmin edilmiş tələblər;

9.3.6.2. 50 (əlli) faizli risk qrupuna aid edilməyən beynəlxalq reytinq agentlikləri tərəfindən verilmiş minimum “BB-” kredit reytinqinə (və ya buna ekvivalent digər reytinq dərəcəsinə) malik və ya reytinqi olmayan ~~uzunmüddətli~~ qiymətli kağızlar;

9.3.6.3. bütün əsas vəsaitlər, o cümlədən bank işində istifadə olunmayan əsas vəsaitlər;

9.3.6.4. yığılma prosesində olan ödəniş alətləri (bank tərəfindən icra edilmiş, lakin pul əvəzi banka daxil olmamış ödəniş alətləri);

~~9.3.6.5. Fondun zəmanəti ilə manatla verilmiş və qeyri-işlək hissəsi ümumi portfelin 5%-dən yüksək olan sahibkarlara verilmiş kreditlərinin təmin edilmiş hissəsi;~~[21]

~~9.3.6.6. Agentliyin təminatı ilə verilmiş və mikrokreditlərin qeyri-işlək məbləği qalıq portfelin 12%-i və daha çox hissəsini təşkil edən mikrokreditlərin təmin edilmiş hissəsi;~~

9.3.6.7. bu Qaydaların 9.3.1-ci, 9.3.2-ci, 9.3.3-cü, 9.3.4-cü, 9.3.5-ci, ~~9.3.7-ci,~~ 9.3.8-ci, ~~9.3.9-cu və~~ 9.3.10-cu *və 9.3.11-ci* yarımbəndlərində göstərilən risk qruplarına aid olmayan digər aktivlər;[22]

*9.3.6.8. 35 (otuz beş) və 50 (əlli) faizli risk qruplarına aid edilməyən yerli banklara (Azərbaycan Respublikasında fəaliyyət göstərən banklara və xarici bankların yerli filiallarına) qarşı tələblər;*[23]

*9.3.6.9. 20 (iyirmi) faizli risk qruplarına aid edilməyən ailə kəndli təsərrüfatına milli valyutada verilmiş kənd təsərrüfatı kreditləri;*~~.~~[24]

~~9.3.7. 120 (yüz iyirmi) faizli (1,2 əmsallı) risk qrupu:~~

~~9.3.7.1. xarici valyutada gəliri olan borcalanlara verilmiş biznes kreditləri istisna olmaqla, xarici valyutada olan biznes kreditləri.~~

*9.3.6.10. maliyyə təşkilatlarının kapitalına qismən əhəmiyyətli və ya əhəmiyyətsiz investisiyalar (bu Qaydaların 8.1.8.1-ci yarımbəndində müəyyən edilmiş kapitaldan çıxılan hissəsi istisna olmaqla).*

9.3.8. 150 (yüz əlli) faizli (1,5 əmsallı) risk qrupu:

9.3.8.1. beynəlxalq reytinq agentlikləri tərəfindən verilmiş "BB-" kredit reytinqindən aşağı kredit reytinqinə (və ya buna ekvivalent digər reytinq dərəcəsinə) malik ~~uzunmüddətli~~ korporativ qiymətli kağızlar.

~~9.3.8.2. BGN əmsalı 45 (qırx beş) faizdən yuxarı olan, lakin 60 (altmış) faiz həddini keçməyən istehlak kreditləri (təminatı qismində milli və sərbəst dönərli xarici valyutada pul vəsaitləri çıxış edən və təminatının dəyəri təmin etdiyi öhdəliyin 100 (yüz) faizindən az olmayan, habelə təminatı qismində daşınmaz əmlak və avtomobil nəqliyyatı vasitələri çıxış edən və təminatının dəyəri təmin etdiyi öhdəliyin 150 (yüz əlli) faizindən az olmayan istehlak kreditləri istisna olmaqla);~~

~~9.3.8.3. verilmə anında faiz dərəcəsi əvvəlki rübdə verilmiş istehlak kreditləri üzrə sektorun orta faiz dərəcəsi və onun üçdə birinin cəmindən böyük olan istehlak kreditləri. İstehlak kreditləri üzrə orta faiz dərəcəsi Mərkəzi Bank tərəfindən bu Qaydalara 1 saylı Əlavədə göstərilən qaydada hesablanır və hər rübdən sonrakı ayın 25-nə kimi Mərkəzi Bankın rəsmi internet səhifəsində açıqlanır. Orta faiz dərəcəsinin açıqlandığı tarixdən sonrakı 1 (bir) iş günü ərzində banklara bu barədə elektron və ya poçt bildirişi ilə məlumat verilir. Orta faiz dərəcəsi açıqlanana qədər banklar əvvəlki rübün məlumatından istifadə edir.~~

~~9.3.9. 180 (yüz səksən) faizli (1,8 əmsallı) risk qrupu:~~

~~9.3.9.1. BGN əmsalı 60 (altmış) faizdən yuxarı olan, lakin 70 (yetmiş) faiz həddini keçməyən istehlak kreditləri (təminatı qismində milli və sərbəst dönərli xarici valyutada pul vəsaitləri çıxış edən və təminatının dəyəri təmin etdiyi öhdəliyin 100 (yüz) faizindən az olmayan, habelə təminatı qismində daşınmaz əmlak və avtomobil nəqliyyatı vasitələri çıxış edən və təminatının dəyəri təmin etdiyi öhdəliyin 150 (yüz əlli) faizindən az olmayan istehlak kreditləri istisna olmaqla);~~

~~9.3.9.2. verilmə anında faiz dərəcəsi əvvəlki rübdə verilmiş istehlak kreditləri üzrə sektorun orta faiz dərəcəsi və onun yarısının cəmindən böyük olan istehlak kreditləri.~~[25]

9.3.10. 200 (iki yüz) faizli (2,0 əmsallı) risk qrupu:

9.3.10.1. *BGN əmsalı 45 (qırx beş) faizdən yuxarı olan, lakin 60 (altmış) faiz həddini keçməyən və ya* BGN əmsalı 70 (yetmiş) faizdən yuxarı olan istehlak kreditləri ~~(təminatı qismində milli və sərbəst dönərli xarici valyutada pul vəsaitləri çıxış edən və təminatının dəyəri təmin etdiyi öhdəliyin 100 (yüz) faizindən az olmayan, habelə təminatı qismində daşınmaz əmlak və avtomobil nəqliyyatı vasitələri çıxış edən və təminatının dəyəri təmin etdiyi öhdəliyin 150 (yüz əlli) faizindən az olmayan istehlak kreditləri istisna olmaqla)~~;[26]

*9.3.10.2. verilmə anında faiz dərəcəsi əvvəlki rübdə verilmiş istehlak kreditləri üzrə sektorun orta faiz dərəcəsi və onun dörddə birinin cəmindən böyük olan istehlak kreditləri. İstehlak kreditləri üzrə orta faiz dərəcəsi Mərkəzi Bank tərəfindən bu Qaydalara 1 nömrəli Əlavədə göstərilən qaydada hesablanır və hər rübdən sonrakı ayın 25-nə kimi Mərkəzi Bankın rəsmi internet səhifəsində açıqlanır. Orta faiz dərəcəsinin*

*açıqlandığı tarixdən sonrakı 1 (bir) iş günü ərzində banklara bu barədə elektron və ya poçt bildirişi ilə məlumat verilir. Orta faiz dərəcəsi açıqlanana qədər banklar əvvəlki rübün məlumatlarından istifadə edir;*

*9.3.10.3. xarici valyutada gəliri olan və ya valyuta riski digər formada hedcləşdirilmiş borcalanlara verilmiş biznes kreditləri istisna olmaqla, valyuta riski hedcləşdirilməmiş borcalanlara xarici valyutada verilmiş biznes kreditləri.*[27]

*9.3.11. 230 (iki yüz otuz) faizli (2,3 əmsallı) risk qrupu:*

*9.3.11.1. BGN əmsalı 60 (altmış) faizdən yuxarı olan, lakin 70 (yetmiş) faiz həddini keçməyən istehlak kreditləri;*

*9.3.11.2. verilmə anında faiz dərəcəsi əvvəlki rübdə verilmiş istehlak kreditləri üzrə sektorun orta faiz dərəcəsi və onun üçdə birinin cəmindən böyük olan istehlak kreditləri.*[28]

*9.3.11-1. 250 (iki yüz əlli) faizli (2,5 əmsallı) risk qrupu:*

*9.3.11-1.1. maliyyə təşkilatlarının kapitalına əhəmiyyətli investisiyalar (bu Qaydaların 8.1.8.2-ci yarımbəndində müəyyən edilmiş kapitaldan çıxılan hissəsi istisna olmaqla);*

*9.3.11-1.2. müvəqqəti fərqlərdən (məsələn, ehtiyatlardan, komissiya gəlirlərindən, amortizasiya üsulunun seçimindən və s.) yaranan təxirə salınmış vergi aktivləri (bu Qaydaların 8.1.5.2-ci yarımbəndində müəyyən edilmiş kapitaldan çıxılan hissəsi istisna olmaqla).*

9.4. İstehlak krediti bir neçə fərqli risk qrupunun şərtlərinə uyğun gəldiyi təqdirdə, kredit uyğun gəldiyi ən yüksək əmsallı risk qrupuna aid edilir. İstehlak kreditlərininin müddətindən və valyutasından asılı olaraq isə risk dərəcələri aşağıdakı qaydada artırılır:

9.4.1. müddəti 3 il və ya daha çox və 5 il və ya daha az təşkil edən kreditlərin risk dərəcəsi 20 faiz bəndi artırılır;

9.4.2. müddəti 5 ildən çox ~~və 7 il və ya daha az~~ təşkil edən kreditlərin risk dərəcəsi 40 faiz bəndi artırılır;[29]

9.4.3. xarici valyutada verilmiş istehlak kreditlərinin risk dərəcəsi 60 faiz bəndi artırılır.

*9.4-1. Mərkəzi Bankın İdarə Heyətinin 2023-cü il 21 sentyabr tarixli 46/4 nömrəli Qərarı ilə təsdiq edilmiş "Banklarda kredit risklərinin idarə edilməsi Qaydası"nda müəyyən edilmiş davranış modeli əsasında verilmiş kreditlərin risk dərəcəsi 20 faiz bəndi artırılır.*[30]

9.5. Balansdankənar öhdəliklərin (aktivlərin) risk qruplarının müəyyən edilməsi üçün balansdankənar öhdəliklərin icra məbləği bu Qaydaların 9.6-cı və 9.7-ci bəndlərində müəyyən edilmiş kreditə konvertasiya əmsalına vurulur, alınan hasil balansdankənar öhdəliyin balans aktivinin ekvivalenti hesab edilir və həmin məbləğ bu Qaydaların 9.3-cü bəndi ilə balans aktivləri üçün müəyyən olunmuş müvafiq risk qrupuna aid edilir.

9.6. Bu hissədə göstərilən balansdankənar öhdəliklər aşağıda müəyyən olunmuş əmsallar üzrə kreditə konvertasiya edilir:

9.6.1. *istehlak krediti xətləri istisna olmaqla,* müddəti bir ilədək olan balansdankənar öhdəliklər – 20 (iyirmi) faizlə (kreditə konvertasiya əmsalı – 0,2);[31]

*9.6.1-1. istehlak krediti xətləri - 40 (qırx) faizlə (kreditə konvertasiya əmsalı – 0,4);*[32]

9.6.2. *istehlak krediti xətləri istisna olmaqla,* müddəti bir ildən çox olan balansdankənar öhdəliklər – 50 (əlli) faizlə (kreditə konvertasiya əmsalı – 0,5);

9.6.3. bank aksepti və qiymətli kağızların alınması və satılması üzrə öhdəliklər – 100 (yüz) faizlə (kreditə konvertasiya əmsalı – 1,0);

9.6.4. *istehlak krediti xətləri istisna olmaqla,* müqavilə əsasında banka birtərəfli qaydada öhdəliyi tam yerinə yetirməmək hüququ verən öhdəliklər – 0 (sıfır) faizlə (kreditə konvertasiya əmsalı – 0).[33]

*9.6-1. istehlak krediti xətlərinin istifadə edilməmiş hissəsi (balansdankənar hesablarda uçota alınan) bu Qaydaların 9.6.1-1-ci yarımbəndinə uyğun olaraq kreditə konvertasiya edildikdən sonra 100 (yüz) faizli risk qrupuna aid edilir.*[34]

9.7. Valyuta müqavilələri (forvard müqavilələri) aşağıdakı cədvəldə verilmiş əmsallar üzrə kreditə konvertasiya olunur:

| Müqavilə müddətinə görə bağlanmış forvard müqavilələri (müqavilə ilə valyutanın alınması üçün müəyyən olunmuş ilkin müddət) | Kreditə konvertasiya faizi və ya əmsalı |
|---|---|
| a) bir il və ondan az olan müddətə | 2 % və ya 0,02 |
| b) bir ildən iki ilə qədər olan müddətə | 5 % və ya 0,05 |
| c) iki ildən artıq olan müddətə. Üçüncü ildən başlayaraq hər növbəti il üçün - 3% (n-illərin sayı) | 5 %+3 % x n və ya 0,05+0,03 x n |

Forvard müqaviləsinin məbləğinin balans aktivinə konvertasiya edilməsi üçün, cədvəldə verilmiş kreditə konvertasiya əmsalı müqavilə məbləğinə vurulur, alınan hasil balansdankənar öhdəliyin balans ekvivalenti hesab edilir və həmin məbləğ bu Qaydaların 9.3-cü bəndi ilə balans aktivləri üçün müəyyən olunmuş müvafiq risk qrupuna aid edilir.

### ~~*10. Aktivlərdən tutulmalar*~~

~~*Risk dərəcəsi üzrə ölçülmüş aktivlər hesablanmazdan əvvəl aktivlərdən həmin aktivlər üzrə mümkün zərərin ödənilməsi üçün yaradılmış "məqsədli" ehtiyatlar, habelə I dərəcəli kapital və məcmu kapitaldan aparılan tutulmalar çıxılır ("tutulmalar" aparılır).*~~

### 11. Bazar riskləri üzrə minimum kapital tələbi

11.1. Bu Qaydaların məqsədləri üçün bazar risklərinə yalnız bankın məruz qaldığı valyuta riski daxildir.

11.2. Bazar riski dərəcəsi üzrə ölçülmüş aktivlər "Banklarda açıq valyuta mövqeyinin limitlərinin müəyyən edilməsi Qaydaları" əsasında müəyyən edilmiş *və orta aylıq əsasda hesablanmış* məcmu açıq valyuta mövqeyinin mütləq ifadəsinə bərabərdir.[35]

11.3. Məcmu açıq valyuta mövqeyi bankın məcmu kapitalının 2 faizini və ya daha artıq hissəsini təşkil etdiyi təqdirdə bazar riskinin hesablanmasında tam həcmdə nəzərə alınır, bankın məcmu kapitalının 2 faizindən az hissəsini təşkil etdikdə isə 0 (sıfır) kimi müəyyən edilir.

### 12. Əməliyyat riskləri üzrə minimum kapital tələbi

12.1. Əməliyyat riski dərəcəsi üzrə ölçülmüş aktivlər əməliyyat riskləri üzrə kapital tələbinin bu Qaydaların ~~13.1-ci~~*8-3.1-ci* və ~~13.2-ci~~*8-4.5-ci* bəndlərində müəyyən edilmiş məcmu kapitalın adekvatlıq əmsalına bölünməsi yolu ilə aşağıdakı düsturla hesablanır:

$$\text{RÖA (ƏR)} = \frac{ƏR}{AƏ}$$

Burada: ƏR - əməliyyat riskləri üzrə kapital tələbi, AƏ - məcmu kapitalın adekvatlıq əmsalıdır.

12.2. Əməliyyat riskləri üzrə kapital tələbinin hesablanması baza indikator yanaşması ilə aşağıdakı düsturla müəyyən edilir və ötən 3 il ərzində bankın 15 (on beş) faizə vurulmuş müsbət illik əməliyyat mənfəətinin cəminin orta məxrəcinə bərabərdir:

01.01.2027-ci il tarixindən etibarən qüvvəyə minəcək versiya

$$ƏR = \frac{\sum_{i=1}^{n}(M * 15\%)}{n}$$

Burada: ƏR - əməliyyat riskləri üzrə kapital tələbi, M – ötən 3 il ərzində bankın müsbət illik əməliyyat mənfəəti, n - 3 illik dövr üzrə müsbət əməliyyat mənfəəti əldə edilmiş illərin sayıdır.

12.3. Əməliyyat mənfəətinin mənfi və ya sıfıra bərabər olduğu il əməliyyat riskləri üzrə kapital tələbinin hesablanması zamanı surətdə həmin il üzrə əməliyyat mənfəəti, məxrəcdə isə həmin il nəzərə alınmır.

12.4. Ötən 3 il ərzində hər il əməliyyat mənfəəti mənfi və ya 0 (sıfır) olduğu təqdirdə bankın əməliyyat riskləri üzrə kapital tələbi 0 (sıfır) kimi müəyyən olunur.

12.5. Əməliyyat mənfəəti bankın xalis faiz və xalis qeyri-faiz gəlirlərinin və bankın faiz borcları *və (və ya) müqavilədə göstərilən digər ödənişlər* üzrə yaradılmış məqsədli ehtiyatlarının cəminə bərabərdir. [36]

12.6. Əməliyyat mənfəətinin hesablanmasına gündəlik əsasda bankın məcmu gəlir haqqında hesabatında (mənfəət və zərərlər haqqında hesabat) nəzərə alınan qiymətli kağızlar istisna olmaqla digər qiymətli kağızların ticarətindən əldə edilmiş gəlir və zərər, habelə gözlənilməz fəaliyyət növlərindən, o cümlədən sığorta fəaliyyətindən əldə edilmiş gəlir daxil edilmir.

### ~~*13. Kapitalın adekvatlıq əmsallarına dair tələblər və onların hesablanması*~~

~~*13.1. Sistem əhəmiyyətli banklar istisna olmaqla, digər banklar məcmu kapitalın adekvatlıq əmsalını 10 (on) faizdən az olmayan səviyyədə saxlamalıdır.*~~

~~*13.2. Sistem əhəmiyyətli bankların məcmu kapitalın adekvatlıq əmsalı 12 (on iki) faizdən az ola bilməz.*~~

~~*13.3. Sistem əhəmiyyətli banklar istisna olmaqla, digər banklar I dərəcəli kapitalın adekvatlıq əmsalını 5 (beş) faizdən az olmayan səviyyədə saxlamalıdır.*~~

~~*13.4. Sistem əhəmiyyətli bankların I dərəcəli kapitalın adekvatlıq əmsalı 6 (altı) faizdən az ola bilməz.*~~

~~*13.5. İqtisadi tsikl və kredit portfelinin artım tempindən asılı olaraq I dərəcəli kapital və məcmu kapital adekvatlığı əmsalının üzərinə 0 – 2.5% arasında kontr-tsiklik kapital buferi tətbiq edilir. Kontr-tsiklik kapital buferinin hesablanması bu Qaydalara 2 nömrəli Əlavə ilə müəyyən edilir.*~~[37]

~~*13.6. Məcmu kapitalın, risk dərəcəsi üzrə ölçülmüş aktivlərin və kapitalın adekvatlıq əmsallarının hesablanması aşağıdakı düsturlarla aparılır:*~~

~~*13.6.1. Məcmu kapital*~~

$$= T_1 - TT_1 + T_2 - MT$$

~~*Burada: T1 - I dərəcəli kapital, TT1 - I dərəcəli kapitaldan "tutulmalar", T2 -II dərəcəli kapital, MT - məcmu kapitaldan "tutulmalar".*~~

~~*13.6.2. Risk dərəcəsi üzrə ölçülmüş aktivlərin hesablanması aşağıdakı düsturla aparılır:*~~

$$RÖA = BA + BKÖ$$

$$BA = \sum_i RD_i * (BA_i - E_i)$$

$$BKÖ = \sum_i \sum_j KK_j * (BKÖ_j - E_j) * RD_{ij}$$

~~*Burada: RÖA – risk dərəcəsi üzrə ölçülmüş aktivlər, BA – risk dərəcəsi üzrə ölçülmüş balans aktivləri, BKÖ – risk dərəcəsi üzrə ölçülmüş balansdankənar öhdəliklər, RDi – aktivlər üzrə i ci risk*~~

~~dərəcəsi, BAi – i ci risk dərəcəsinə uyğun balans aktivləri, Ei – i ci risk dərəcəsinə uyğun balans aktivlərindən tutulmalar, KKj – j ci kreditə konvertasiya əmsalı, BKÖj – j ci kreditə konvertasiya əmsalına uyğun balansdankənar öhdəliklərin icra məbləği, Ej – j ci kreditə konvertasiya əmsalına uyğun balansdankənar öhdəliklərdən tutulmalar, RDij – j ci kreditə konvertasiya əmsalına vurulduqdan sonrakı i ci balans maddəsinin risk dərəcəsidir.~~

~~13.6.3. I dərəcəli kapitalın adekvatlıq əmsalı~~

$$= \frac{T_1 - TT_1}{RÖA(Kr) + RÖA(Br) + RÖA(Ər)} \times 100\%$$

~~Burada: T1 – I dərəcəli kapital, TT1 – I dərəcəli kapitaldan "tutulmalar", RÖA(Kr) – kredit riski dərəcəsi üzrə ölçülmüş aktivlər, RÖA(Br) – bazar riski dərəcəsi üzrə ölçülmüş aktivlər, RÖA(Ər) – əməliyyat riski dərəcəsi üzrə ölçülmüş aktivlərdir.~~

~~13.6.4. məcmu kapitalın adekvatlıq əmsalı~~

$$= \frac{TC}{RÖA(Kr) + RÖA(Br) + RÖA(Ər)} \times 100\%$$

~~Burada: TC – məcmu kapital, RÖA(Kr) – kredit riski dərəcəsi üzrə ölçülmüş aktivlər, RÖA(Br) – bazar riski dərəcəsi üzrə ölçülmüş aktivlər, RÖA(Ər) – əməliyyat riski dərəcəsi üzrə ölçülmüş aktivlərdir.~~

~~13.7. I dərəcəli kapitalın və məcmu kapitalın adekvatlıq əmsallarının hesablanması zamanı bazar və əməliyyat riskləri dərəcəsi üzrə ölçülmüş aktivlər 2021-ci ilin yanvar ayının 1-dən nəzərə alınır.~~

## 14. Leverec əmsalına dair tələblər və onun hesablanması

14.1. Sistem əhəmiyyətli banklar istisna olmaqla, digər banklar leverec əmsalını 4 (dörd) faizdən az olmayan səviyyədə saxlamalıdır.

14.2. Sistem əhəmiyyətli bankların leverec əmsalı 5 (beş) faizdən az ola bilməz.

14.3. Leverec əmsalında nəzərə alınması üçün balansdankənar öhdəliklərin icra məbləği aşağıda müəyyən olunmuş əmsallar ilə kreditə konvertasiya olunur:

14.3.1. müddəti bir ilədək olan balansdankənar öhdəliklər – 20 (iyirmi) faizlə (kreditə konvertasiya əmsalı – 0,2);

14.3.2. müddəti bir ildən çox olan balansdankənar öhdəliklər – 50 (əlli) faizlə (kreditə konvertasiya əmsalı – 0,5);

14.3.3. bank aksepti və qiymətli kağızların alınması və satılması üzrə öhdəliklər – 100 (yüz) faizlə (kreditə konvertasiya əmsalı – 1,0);

14.3.4. müqavilə əsasında banka birtərəfli qaydada öhdəliyi tam yerinə yetirməmək hüququ verən öhdəliklər – 10 (on) faizlə (kreditə konvertasiya əmsalı – 0,1).

14.4. Leverec əmsalı

$$= \frac{I\ dərəcəli\ kapital\ (bu\ Qaydaların\ 8 - ci\ hissəsində\ müəyyən\ edilmiş\ tutulmalardan\ sonra)}{(balans\ aktivləri + balansdankənar\ öhdəliklər)}\ x\ 100\%$$

14.5. Depozit valyuta svopları üzrə bağlanan əqdlər aşağıdakı hallarda netləşdirilərək leverec əmsalında nəzərə alınır:

14.5.1. müddəti 1 ilə qədər olan əqdlərin məcmu məbləği cəmi aktivlərin 10 (on) faizindən az hissəsini təşkil etdikdə;

14.5.2. müddəti 1 ildən artıq olan əqdlərin məcmu məbləği cəmi aktivlərin 15 (on beş) faizindən az hissəsini təşkil etdikdə;

14.5.3. depozit valyuta svopları üzrə bağlanan bütün əqdlərin cəmi məbləği cəmi aktivlərin 15 (on beş) faizindən az hissəsini təşkil etdikdə.

14.6. Netləşdirmə zamanı bankın svop əqdinin şərtlərinə uyğun olaraq digər banka yerləşdirdiyi depozitlər həmin bankın qarşısında yaranmış öhdəlik həcmində nəzərə alınmır.

14.7. Vəsaitlərin netləşdirilməsi üçün aşağıdakı şərtlər təmin edilməlidir:

14.7.1. yerləşdirilmiş depozit vəsaiti yerləşdirən bank üçün bloklaşdırılır;

14.7.2. yerləşdirilmiş depozit cəlb edilmiş vəsait üçün girov qismində çıxış edir.

## ~~15. Yekun müddəalar~~

~~Bu Qaydalar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.~~[38]

"Bank kapitalının və onun adekvatlığının
hesablanması Qaydaları"na
Əlavə 1

**İstehlak kreditləri üzrə sektorun orta faiz dərəcəsinin hesablanması qaydası**

1. Mərkəzi Bank tərəfindən istehlak kreditləri üzrə sektorun orta faiz dərəcəsinin hesablanması aşağıdakı ardıcıllıqla aparılır:

1.1. hər bir bankdan əvvəlki rübdə verilmiş istehlak kreditlərinin aşağıdakı növləri üzrə orta faiz dərəcələri əldə edilir:

1.1.1. avtomobil kreditləri;

1.1.2. kredit kartı vasitəsi ilə verilən kreditlər;

1.1.3. yaşayış sahəsinin təmiri ilə bağlı olan kreditlər;

1.1.4. məişət avadanlıqlarının alınması ilə bağlı olan kreditlər;

1.1.5 digər istehlak kreditləri.

1.2. əldə edilmiş orta faiz dərəcələri əsasında istehlak kreditinin hər bir növü üzrə sektorun medianı müəyyən edilir.

2. Hər bir bank tərəfindən bankın əvvəlki rübdə müvafiq valyutada verdiyi $j$ istehlak krediti növü üzrə orta faiz dərəcəsinin hesablanması (həmin bank üzrə) aşağıdakı düstur ilə aparılır:

$$P_j = \frac{\sum_{k=1}^{m}(L_{jk} \times I_{jk})}{\sum_{k=1}^{m} L_{jk}}$$

Burada:

$P_j$ – bankın əvvəlki rübdə müvafiq valyutada verdiyi $j$ istehlak krediti növü üzrə kreditlərin orta faiz dərəcəsi;

$L_{jk}$ – bankın əvvəlki rübdə müvafiq valyutada verdiyi $j$ istehlak krediti növü üzrə k-cı kreditin məbləği;

$I_{jk}$ - bankın əvvəlki rübdə müvafiq valyutada verdiyi $j$ istehlak krediti növü üzrə k-cı kreditin faiz dərəcəsi;

$j$ – istehlak kreditinin növü;

$k$ – kreditın sıra nömrəsi, $k = \{1,2,\dots,m\}$

$m$ – j istehlak krediti növü üzrə kreditlərin ümumi sayı.

3. Bank bu Əlavənin 2-ci hissəsində müəyyən edilmiş formada hesabladığı orta faiz dərəcəsini, hesablamaların əsasını təşkil edən məlumatlarla birlikdə Mərkəzi Bankın müəyyən etdiyi formada prudensial hesabatlarla birgə Mərkəzi Banka təqdim edir.

*4. Kredit müqaviləsində faizlərin əvəzinə digər ödənişlər nəzərdə tutulduqda, orta faiz dərəcəsinin hesablanmasında həmin ödənişlərin cəmi nəzərə alınır.*[39]

01.01.2027-ci il tarixindən etibarən qüvvəyə minəcək versiya

"Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"na
Əlavə 2

## Kontr-tsiklik kapital buferinin hesablanması və açıqlanması qaydası

1. Kontr-tsiklik kapital buferinin yaradılması üçün əsas göstərici kimi kredit qəpi çıxış edir.

2. Kredit qəpi – müvafiq dövrdə ~~banklar tərəfindən müştərilərə verilmiş~~*cəmi* kredit portfelinin ÜDM-ə nisbəti~~nin~~ *və qeyri-neft sektoruna aid kredit portfelinin qeyri-neft ÜDM-ə nisbəti üzrə orta göstəricinin* bu *nisbətlərin* ~~nisbətin~~ uzunmüddətli trendinin həmin dövrə olan *orta* göstəricisinin fərqidir.

3. Kredit portfelinin ÜDM-ə *və qeyri-neft sektoruna aid kredit portfelinin qeyri-neft ÜDM-ə nisbətlərinin* ~~nisbətinin~~ uzunmüddətli trendi hesablanarkən *azı* 10 *(on)* illik göstəricilər nəzərə alınır. Trend müəyyən edilərkən Hodrick-Prescott filtri istifadə edilir~~, hamarlaþdýrýcý parametr (λ – lambda) isə 1,600 və ya 400,000 kimi müəyyən edilə bilər.~~

4. Əsas göstərici olaraq kredit qəpi 2-10% aralığında dəyişərkən kontr-tsiklik kapital buferi müvafiq olaraq 0-2.5% aralığında aşağıdakı düstura uyğun olaraq (bu Əlavənin 5-ci hissəsinin tələbləri nəzərə alınmaqla) müəyyən edilir:

$$\text{Kontr-tsiklik kapital buferi} = Min\left(2.5\%x\frac{Max\,(Kredit\ qəpi-2\%,0)}{10\%-2\%},2.5\%\right)$$

5. Kontr-tsiklik kapital buferini təyin edərkən, kredit qəpindən əlavə olaraq aşağıdakı göstəricilər nəzərə alınır:

5.1. real ÜDM *və qeyri-neft ÜDM* artımı;

5.2. bank sektorunun kapitalının gəlirliliyinin *dinamikası*~~artımı~~;

*5.2-1. leverec əmsalının dinamikası;*

~~5.3. bank sektorunun itkiləri;~~

5.4. əmlak və səhm bazarı göstəricilərinin uzunmüddətli trenddən deviasiyası *(kənarlaşması);*

5.5. eyni müddətli dövlət qiymətli kağızları və korporativ qiymətli kağızların gəlirliliyinin fərqi;

*5.6. bankların kapital mövqeyi;*

*5.7. əhalinin və qeyri-maliyyə təşkilatlarının borclanma səviyyəsi;*

*5.8. problemli maliyyə təşkilatlarında kreditlərin dinamikası.*

~~6. Tələb olunan kapital buferi dərəcəsi artırıldığı təqdirdə, bu tələb artımın elan edildiyi tarixdən azı 1 (bir) ay sonra, azalma tələbi isə azalmanın elan edildiyi tarixdən etibarən qüvvəyə minir.~~[40]

01.01.2027-ci il tarixindən etibarən qüvvəyə minəcək versiya

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 01 avqust 2022-ci il tarixli **32/1** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202208010321, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 15 avqust 2022-ci il)**
2. 21 sentyabr 2023-cü il tarixli **46/2** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202309210462, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 3 oktyabr 2023-cü il)**
3. 10 dekabr 2024-cü il tarixli **49/6** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankın İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202412100496, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 24 dekabr 2024-cü il)**
4. 15 iyul 2025-ci il tarixli **25/3** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankın İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202507150253, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 25 iyul 2025-ci il)**

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[3] 15 iyul 2025-ci il tarixli **25/3** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankın İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202507150253, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 25 iyul 2025-ci il)** ilə "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"nın 2.1.17-ci yarımbəndə "**kredit**" sözündən sonra "**, o cümlədən kredit xətti**" sözləri əlavə edilmişdir.

[4] 21 sentyabr 2023-cü il tarixli **46/2** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202309210462, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 3 oktyabr 2023-cü il)** ilə "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"nın 2.1.18-ci yarımbəndinə "**kredit**" sözündən sonra "**, habelə kənd təsərrüfatı kreditləri**" sözləri əlavə edilmişdir.

[5] 01 avqust 2022-ci il tarixli **32/1** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202208010321, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 15 avqust 2022-ci il)** ilə "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"nın 2.1.21-ci yarımbənd ləğv edilmişdir.

[6] 21 sentyabr 2023-cü il tarixli **46/2** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202309210462, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 3 oktyabr 2023-cü il)** ilə "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"nın 2.1.22-ci və 2.1.23-cü yarımbəndləri ləğv edilmişdir.

[7] 01 avqust 2022-ci il tarixli **32/1** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202208010321, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 15 avqust 2022-ci il)** ilə "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"na yeni məzmunda 2.2-ci bənd əlavə edilmişdir.

21 sentyabr 2023-cü il tarixli **46/2** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202309210462, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 3 oktyabr 2023-cü il)** ilə "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"nın 2.2-ci bəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~2.2. Bu Qaydada istifadə olunan restrukturizasiya olunmuş aktiv, hedcləşdirilməmiş borcalan və borcun gəlirlərə nisbəti (BGN əmsalı) anlayışları "Aktivlərin təsnifləşdirilməsi və mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatların yaradılması Qaydası"nda müəyyən edilmiş mənaları ifadə edir.~~

[8] 15 iyul 2025-ci il tarixli **25/3** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankın İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202507150253, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 25 iyul 2025-ci il)** ilə "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"na yeni məzmunda 2.3-cü bənd əlavə edilmişdir.

[9] 01 avqust 2022-ci il tarixli **32/1** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202208010321, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 15 avqust 2022-ci il)** ilə "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"nın 9.3.1.1-ci yarımbəndə "**tələblər**" sözündən sonra "**, yaxud aktivin bu ölkələrin hökumətləri və ya mərkəzi bankları tərəfindən qeyd-şərtsiz təmin olunmuş hissəsi**" sözləri əlavə edilmişdir.

[10] 21 sentyabr 2023-cü il tarixli **46/2** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202309210462, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 3 oktyabr 2023-cü il)** ilə "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"nın 9.3.1.7-ci yarımbəndi ləğv edilmişdir.

[11] 21 sentyabr 2023-cü il tarixli **46/2** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202309210462, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 3 oktyabr 2023-cü il)** ilə "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"nın 9.3.1.9-cu yarımbənddə ikinci halda "**dövlət**" sözündən sonra "**və Mərkəzi Bankın**" sözləri əlavə edilmişdir və həmin yarımbənddə "**kağızlarla**" sözü "**kağızlar ilə**" sözləri ilə əvəz edilmişdir.

[12] 01 avqust 2022-ci il tarixli **32/1** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202208010321, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 15 avqust 2022-ci il)** ilə "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"nın 9.3.1.8-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 9.3.1.9-cu və 9.3.1.10-cu yarımbəndlər əlavə edilmişdir.

[13] 21 sentyabr 2023-cü il tarixli **46/2** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202309210462, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 3 oktyabr 2023-cü il)** ilə "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"nın 9.3.2.8-ci yarımbəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~9.3.2.8. Fondun zəmanəti ilə manatla verilmiş və qeyri-işlək hissəsi ümumi portfelin 5%-dək olan sahibkarlıq kreditlərinin təmin edilmiş hissəsi;~~

[14] 21 sentyabr 2023-cü il tarixli **46/2** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202309210462, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 3 oktyabr 2023-cü il)** ilə "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"nın 9.3.2.9-cu yarımbəndi ləğv edilmişdir.

[15] 01 avqust 2022-ci il tarixli **32/1** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202208010321, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 15 avqust 2022-ci il)** ilə "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"nın 9.3.2.10-cu, 9.3.4.5-ci, 9.3.6.2-ci və 9.3.8.1-ci yarımbəndlərdən "**uzunmüddətli**" sözü çıxarılmışdır.

[16] 01 avqust 2022-ci il tarixli **32/1** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202208010321, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 15 avqust 2022-ci il)** ilə "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"nın 9.3.2.10-cu yarımbəndin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilmişdir və 9.3.2.11-ci və 9.3.4.6-cı yarımbəndlər ləğv edilmişdir.

[17] 01 avqust 2022-ci il tarixli **32/1** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202208010321, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 15 avqust 2022-ci il)** ilə "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"nın 9.3.3.1-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 9.3.3.2-ci yarımbənd əlavə edilmişdir.

21 sentyabr 2023-cü il tarixli **46/2** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202309210462, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 3 oktyabr 2023-cü il)** ilə "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"nın 9.3.3.2-ci və 9.3.4.10-cu yarımbəndlərində "**aktivlər**" sözü "**tələblər**" sözü ilə əvəz edilmişdir.

[18] 21 sentyabr 2023-cü il tarixli **46/2** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202309210462, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 3 oktyabr 2023-cü il)** ilə "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"nın 9.3.4.8-ci yarımbəndinə "**biznes**" sözündən sonra **", o cümlədən kənd təsərrüfatı**" sözləri əlavə edilmişdir.

[19] 01 avqust 2022-ci il tarixli **32/1** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202208010321, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 15 avqust 2022-ci il)** ilə "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"nın 9.3.4.9-cu yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 9.3.4.10-cu yarımbənd əlavə edilmişdir.

[20] 21 sentyabr 2023-cü il tarixli **46/2** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202309210462, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 3 oktyabr 2023-cü il)** ilə "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"nın 9.3.5.1-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 9.3.5.2-ci yarımbənd əlavə edilmişdir.

[21] 21 sentyabr 2023-cü il tarixli **46/2** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202309210462, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 3 oktyabr 2023-cü il)** ilə "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"nın 9.3.6.5-ci və 9.3.6.6-cı yarımbəndləri ləğv edilmişdir.

[22] 01 avqust 2022-ci il tarixli **32/1** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202208010321, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 15 avqust 2022-ci il)** ilə "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"nın 9.3.6.7-ci yarımbəndini "**9.3.7-ci,**" və "**9.3.9-cu və**" sözləri çıxarılmışdır, "**9.3.10-cu**" sözlərindən sonra "**və 9.3.11-ci**" sözləri əlavə edilmişdir, yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 9.3.6.8-ci yarımbənd əlavə edilmişdir.

[23] 01 avqust 2022-ci il tarixli **32/1** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202208010321, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 15 avqust 2022-ci il)** ilə "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"nın 9.3.6.7-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 9.3.6.8-ci yarımbənd əlavə edilmişdir.

[24] 21 sentyabr 2023-cü il tarixli **46/2** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202309210462, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 3 oktyabr 2023-cü il)** ilə "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"nın 9.3.6.8-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 9.3.6.9-cu yarımbənd əlavə edilmişdir.

[25] 01 avqust 2022-ci il tarixli **32/1** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202208010321, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 15 avqust 2022-ci il)** ilə "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"nın 9.3.8.1-ci yarımbəndin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilmişdir və 9.3.7-ci, 9.3.8.2-ci, 9.3.8.3-cü və 9.3.9-cu yarımbəndlər ləğv edilmişdir.

[26] 01 avqust 2022-ci il tarixli **32/1** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202208010321, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 15 avqust 2022-ci il)** ilə "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"nın 9.3.10.1-ci yarımbəndə "**BGN əmsalı**" sözlərindən əvvəl "**BGN əmsalı 45 (qırx beş) faizdən yuxarı olan, lakin 60 (altmış) faiz həddini keçməyən və ya**" sözləri əlavə edilmişdir və həmin yarımbənddən "**(təminatı qismində milli və sərbəst dönərli xarici valyutada pul vəsaitləri çıxış edən və təminatının dəyəri təmin etdiyi öhdəliyin 100 (yüz) faizindən az olmayan, habelə təminatı qismində daşınmaz əmlak və avtomobil nəqliyyatı vasitələri çıxış edən və təminatının dəyəri təmin etdiyi öhdəliyin 150 (yüz əlli) faizindən az olmayan istehlak kreditləri istisna olmaqla)**" sözləri çıxarılmışdır.

[27] 01 avqust 2022-ci il tarixli **32/1** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202208010321, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 15 avqust 2022-ci il)** ilə "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"nın 9.3.10.1-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 9.3.10.2-ci və 9.3.10.3-cü yarımbəndlər əlavə edilmişdir.

[28] 01 avqust 2022-ci il tarixli **32/1** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202208010321, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 15 avqust 2022-ci il)** ilə "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"na yeni məzmunda 9.3.11-ci yarımbənd əlavə edilmişdir.

[29] 01 avqust 2022-ci il tarixli **32/1** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202208010321, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 15 avqust 2022-ci il)** ilə "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"nın 9.4.2-ci yarımbənddən "**və 7 il və ya daha az**" sözləri çıxarılmışdır.

[30] 10 dekabr 2024-cü il tarixli **49/6** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankın İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202412100496, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 24 dekabr 2024-cü il)** ilə "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"na yeni məzmunda 9.4-1-ci bənd əlavə edilmişdir.

[31] 15 iyul 2025-ci il tarixli **25/3** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankın İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202507150253, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 25 iyul 2025-ci il)** ilə "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"nın 9.6.1-ci və 9.6.2-ci yarımbəndlərdə "**müddəti**" sözündən əvvəl "**istehlak krediti xətləri istisna olmaqla,**" sözləri əlavə edilmişdir.

[32] 15 iyul 2025-ci il tarixli **25/3** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankın İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202507150253, Hüquqi Aktların**

**Dövlət Reyestrinə daxil edildiyi tarix 25 iyul 2025-ci il)** ilə "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"na yeni məzmunda 9.6.1-1-ci yarımbənd əlavə edilmişdir.

[33] 15 iyul 2025-ci il tarixli **25/3** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankın İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202507150253, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 25 iyul 2025-ci il)** ilə "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"nın 9.6.4-cü yarımbənddə "**müqavilə**" sözündən əvvəl "**istehlak krediti xətləri istisna olmaqla,**" sözləri əlavə edilmişdir.

[34] 15 iyul 2025-ci il tarixli **25/3** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankın İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202507150253, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 25 iyul 2025-ci il)** ilə "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"na yeni məzmunda 9.6-1-ci bənd əlavə edilmişdir.

[35] 01 avqust 2022-ci il tarixli **32/1** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202208010321, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 15 avqust 2022-ci il)** ilə "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"nın 11.2-ci bəndə "**müəyyən edilmiş**" sözlərindən sonra "**və orta aylıq əsasda hesablanmış**" sözləri əlavə edilmişdir.

[36] 21 sentyabr 2023-cü il tarixli **46/2** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202309210462, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 3 oktyabr 2023-cü il)** ilə "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"nın 12.5-ci bəndinə "**borcları**" sözündən sonra "**və (və ya) müqavilədə göstərilən digər ödənişlər**" sözləri əlavə edilmişdir.

[38] 01 avqust 2022-ci il tarixli **32/1** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202208010321, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 15 avqust 2022-ci il)** ilə "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"nın 15-ci bənd ləğv edilmişdir.

[39] 21 sentyabr 2023-cü il tarixli **46/2** nömrəli Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23202309210462, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 3 oktyabr 2023-cü il)** ilə "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"nın 1 nömrəli Əlavəyə yeni məzmunda 4-cü hissə əlavə edilmişdir.